

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 iyul
2026-cı il,
çərşənbə
№ 127 (7194)
Qiyməti
60 qəpik


## İlham Əliyev Berlində...

## Bakı-Berlin: strateji mərhələyə yüksələn münasibətlər



Bax səh. 3

## Bir tarixin izi ilə...

36 il əvvəl,
22 iyul
1990-cı il...




Bax səh. 2

## Azərbaycan-Almaniya tərəfdaşlığı: yeni geosiyasi nizamın strateji oxu

Bax səh. 4



## Çin Kommunist Partiyasının nümayəndə heyəti Milli Məclisdə olub

Bax səh. 5

## Milli mətbuatımız 151 yaşında...




Bax səh. 5

## 103-cü hökumət...

Böyük Britaniyanın Baş naziri Kir Starmerin Bukinqem sarayında Kral III Çarlzla görüşərək vəzifəsindən istefasını rəsmiləşdirməsinin ardından Baş nazir kimi səlahiyyətlərinə rəsmi şəkildə xitam verilib. İyulunu 20-də isə kral III Çarlz ölkə hökumətini formalaşdırmaqla bağlı rəsmi olaraq Börnhama tapşırıq verib. Xatırladaq ki, Mançester şəhərinin 56 yaşlı keçmiş meri Endi Börnham ötən cümə günü Leyboristlər Partiyasının rəhbərliyində Kir Starmeri əvəzləyib. Qeyd edək ki, Börnhamın Böyük Britaniyanın növbəti baş naziri olacağı faktı bir neçə həftə öncədən məlum olsa da, rəsmi olaraq yalnız bazar ertəsi kralın tapşırığı ilə vəzifəsinə başlayıb. Beləliklə, Börnham kabineti Böyük Britaniya tarixində rəsmi 103-cü hökumət oldu.

Endi Börnham 1970-ci ildə İngiltərənin şimalındakı Liverpul şəhərində anadan olub. O, Liverpulun simvollarından sayılan "Everton" Futbol Klubunun qatı azarkeşidir. Kembric Universitetində dilçilik ixtisası üzrə təhsil alan Börnham gənc yaşlarından siyasətlə maraqlanıb və Leyborist Partiyasının üzvü olub. 31 yaşında ilk dəfə millət vəkili seçilən Börnham o zamankı Baş nazir Qordon Braunun diqqətini cəlb edir və onun kabinetində vəzifə alır - bir müddət Səhiyyə naziri...

Bax səh. 6

## Altı ölümün öldürdüyü tək adam

"Təzad cini" (1845) novellasında isə fiziki-bioloji varlığın, ruhundan ayrı dolanan bədənin ikili xarakterindən danışılır. Hekayə ölüm kamerasında yatan məhbusun dilindən nəql olunur. Onun fikrincə, yaranışdan hər bir insanın canına onu ağlının, idrakının hökmündən kənar gizli-gizli yönəldən, onu ağlasığmaz əməllərə təhrik eləyən, onu sağlam düşüncənin ziddinə getməyə, qaydaları pozmağa çağıran, tərs məntiqlə işləyən bir cin müsəllət olub - təzad cini. Bu cin uçurumun başında duran adamı özünü aşağı uçurlamağa səsləyir, dərin quyunun dibində marığa yatıb quyuya baxanları kamına çəkir. Qəhrəman əmindir ki, onu qətl törətməyə həmin o cin sövq eləyib. Bu irrasional təmayül özünüqoruma instinktiylə daimi münaqişə vəziyyətindədir, onun qoruduqlarını vurub dağıtmağa fürsət axtarır. Bu da bioloji orqanizmin ikili təbiətindən xəbər verir.

Hekayənin birinci yarısı deyilən yöndə nəzəri mülahizələr, ikinci yarısı müəllifin konsepsiyasına illüstrasiyadır. Təhkiyəçi mirasına göz dikdiyi bir nəfəri zəhərli şamın tüstüsüylə iz qoymadan necə öldürdüyünü yerli-yataqlı danışır. Polis ölümü bədbəxt hadisə kimi qeydə alır, qatildən heç kim şübhələnmir. Buna baxmayaraq adam illər boyu rahatlıq tapmır, bir gün çaşıb-dolaşıb sirrini...

Bax səh. 7




## Avropa İttifaqında ciddi fikir ayrılığı...

Bax səh. 6



## 10 günlük atəşkəs təklifi...

Bax səh. 7





# Bir tarixin izi ilə...

## 36 il əvvəl, 22 iyul 1990-cı il...

**Hazırda orta güc dövləti səviyyəsinə yüksələn, bütün dünyada böyük hörmət bəslənilən, Qlobal Cənubla Qlobal Şimal arasında körpülər yaradan, eyni zamanda, milli maraqlarını qətiyyətlə qorumağı bacaran müstəqil Azərbaycanın uğurlarının təməli 36 il bundan əvvəl məhz tarixin bu günündə yaşanan əlamətdar bir hadisə ilə qoyulub. Söhbət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il iyulun 22-də ulu diyara - Naxçıvana gəlişindən gedir. Ulu Öndər Heydər Əliyev tarixin müxtəlif dönəmlərində respublikamızın və xalqımızın taleyində müstəsna önəm daşıyan addımlar atıb, qərarlar verib. Vətənin, xalqın ən çətin dönəmlərində nicat yolu arayıb tapmaq bu böyük şəxsiyyətin sanki bir alın yazısı idi. Ulu Öndərin bəhs olunan tarixdə Naxçıvana gəlişi də bir qurtuluş məqamı idi. Həm də yalnız Naxçıvan deyil, bütün Azərbaycan üçün xilas məqamı. İnkarolunmaz həqiqət odur ki, əgər Ulu Öndərin 1990-cı il iyulun 22-də Naxçıvana qayıdışı olmasaydı, respublikamızın bugünkü yüksəlişinə, tarixi zəfərlərimizə, işğaldan azad olunmuş ərazilərimizin böyük əzmlə bərpasına və yenidən qurulmasına da şahidlik etməyəcəkdik. Respublikamızın xilası, müstəqilliyimizin qorunması, eyni zamanda, bugünkü uğurlarımız məhz Heydər Əliyevin 36 il bundan əvvəl Naxçıvana dönuşü ilə başlayıb.**

## Naxələflər Heydər Əliyevin Bakıda qalmasına imkan vermədilər

Zamanında Azərbaycanın və şəxsən böyük siyasətçi Heydər Əliyevin keçmiş ittifaq üçün hansı faydaları verməsi barədə arxivlərdə çoxlu materiallar tapmaq mümkündür. Azərbaycan o respublikalardan idi ki, mərkəzi büdcədən heç nə almırdı, əksinə ittifaq büdcəsinin formalaşmasında mühüm rol oynayırdı. Respublikamız həmçinin İkinci Dünya müharibəsi illərində SSRİ-nin neft və neft məhsulları ilə əsas tədarükçüsü idi. Həmçinin keçmiş ittifaqda yüksək vəzifələr tutan Heydər Əliyev SSRİ-nin iqtisadi inkişafı üçün müstəsna önəm daşıyan bir sıra layihələrin həyata keçirilməsinə əvəzsiz töhfələr verib.

Lakin ötən əsrin səksəninci illərinin sonlarından etibarən keçmiş ittifaq məkanında geriyə dönüşü olmayan proseslər izlənilirdi. Rejim üçün ənənəvi olmayan bu proseslər fonunda müəyyən qüvvələr tərəfindən SSRİ-nin rəhbərliyinə gətirilən M.Qorbaçova bir "Heydər Əliyev fobiyası" hakim kəsilmişdi ki, bu da təsadüfi deyildi. M.Qorbaçov bütün ittifaq miqyasında böyük nüfuza malik siyasət nəhəngi Heydər Əliyevi özü üçün bacara bilməyəcəyi rəqib qismində dəyərləndirir və Onun Kremldən getməsi üçün əlindən gələn hər şeyi etməyə çalışırdı. Eyni zamanda, M.Qorbaçovun ətrafında cəmləşən erməni mafiyası da, necə deyərlər, odun üstünə yağ tökməklə özünün fitnəkar rolunu oynayırdı.

Təbii ki, aparılan siyasət təmiz və vicdanlı kadr olan Heydər Əliyevi qane edə bilməzdi. O, götürülən siyasi kursa etirazlarını SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən, Siyasi Büro üzvlüyündən istefa verməklə ifadə etdi.

1990-cı ildə baş verən 20 Yanvar faciəsi M.Qorbaçovun rəhbərliyi altında mərkəzi hakimiyyətin Azərbaycana qarşı repressiv siyasətinin sonu deyildi. Heydər Əliyev müxtəlif kanallardan Kremldə respublikamıza qarşı daha müdhiş planlar hazırlandığı barədə məlumatlar almışdı. Buna görə də O, Azərbaycana qarşı hazırlanan məkrli planların qarşısını almaqdan ötrü həmin çətin vaxtlarda xalqı ilə bir yerdə olmağa qərar vermişdi. Elə Onun özünün də həyatı təhlükə qarşısında idi. Erməni - M.Qorbaçov mafiyası Heydər Əliyevin varlığını Azərbaycana qarşı məkrli planlarını həyata keçirmək yolunda ən böyük maneə hesab edirdi.

O dövrdə mərkəzi hakimiyyətin siyasi sifarişləri əsasında ittifaq və respublika miqyasında Heydər Əliyevə qarşı məqsədli kampaniyaya start verilmişdi. O cümlədən Heydər Əliyevin Azərbaycana qayıtmasına nail olmaq istəyənlər ciddi şəkildə təqiblərə məruz qalırdılar. "Azərnəşr"in və "Yazıçı" nəşriyyatının direktoru, tanınmış naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da Bakıda öz avtomobilində güllələnərək qətlə yetirildi. Bu qətl birbaşa siyasi sifariş idi. Məqsəd də Heydər Əliyevi Azərbaycanda, necə deyərlər, siyasi dayaqdan məhrum etmək, Onu dəstəkləyən işıqlı ziyalılar arasında xof yaratmaq idi. Sonradan istintaq materialları əsasında da Xanbabayevin ölümündə gizli məqamlar aşkarlandı və onun qətlində keçmiş ittifaqın təhlükəsizlik orqanlarının əli olduğu təsdiqləndi.

Heydər Əliyevin bütün maneələrə baxmayaraq , 1990-cı il iyulun 20-də Bakıya gəlməsinə baxmayaraq, Onun paytaxtda qalması əngəlləndi. Buna səbəb isə Azərbaycanın o vaxtkı rəhbərliyinin isterikası idi. Respublika rəhbərliyində təmsil olunan bir sıra yüksək vəzifəli şəxslər Heydər Əliyevin Bakıya qayıtması ilə onlara etimadın azalacağını düşünürdülər. Naxələflər vəzifələrini qorumaq hərisliyi ucbatından Heydər Əliyevin Bakıda qalmasına imkan vermədilər.

**22 iyul 1990-cı il tarixində axşamüstü Naxçıvan şəhərinin mərkəzi hissəsi, Azadlıq meydanı insan selinə qərq olmuşdu. İzdiham o qədər sıx idi ki, Heydər Əliyevin kürsüyə qalxması üçün polis işə qarışıb yol açmaq məcburiyyətində qalmışdı**

## Doğma diyar Naxçıvan Onu duz-çörəklə qarşıladı...

Hər şeydə bir xeyir var, deyiblər. Heydər Əliyev də Bakıda qalmaq mümkün olmadıqda xoş xatirələri dolaşan Naxçıvana üz tutdu. Doğma diyar təyyarə ilə Naxçıvana gələn Heydər Əliyevi duz-çörəklə qarşıladı. O, bacısının kiçik evində yerləşmişdi. Ancaq bu kiçik ev böyük bir ziyarət məkanına çevrilmişdi. 22 iyul 1990-cı il tarixində axşamüstü Naxçıvan şəhərinin mərkəzi hissəsi, Azadlıq meydanı insan selinə qərq olmuşdu. İzdiham o qədər sıx idi ki, Heydər Əliyevin kürsüyə qalxması üçün polis işə qarışıb yol açmaq məcburiyyətində qalmışdı. İzdiham Heydər Əliyevin kürsüyə qalxmasını sürəkli alqışlarla qarşıladı. Böyük şəxsiyyət xəstə vəziyyətdə olduğu üçün isti, bürkülü havada çox danışa bilmədi. Sevinc dolu alqışlar altında etdiyi qısa çıxışı ilə soydaşlarına sonsuz məhəbbətini ifadə etdi. Sonralar Heydər Əliyev Naxçıvan sakinləri ilə görüşü barədə xatirələrini bölüşərək belə deyirdi: "1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilməsə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş".

Azərbaycanın keçmiş "kommunist rejimi" kimi, 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarı da Heydər Əliyevin Naxçıvandakı fəaliyyətindən bərk əndişələnirdi. 24 oktyabr 1992-ci il tarixində AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişinə cəhd göstərildi. Lakin bu cəhdin də qarşısı qətiyyətlə alındı. Xalqının Ona olan sonsuz rəğbətindən, məhəbbətindən vəcdə gələn Heydər Əliyev rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının 1999-cu ildə keçirilən qurultayında bunu çox təsirli şəkildə ifadə edərək deyib: "Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə də Əbülfəz Elçibəy hakimiyyəti - heç birisi Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi..."

## Naxçıvanda üçrəngli bayrağımızın ilk dəfə ucaldılması - bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir

Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra - 17 noyabr 1990-cı il tarixində çağırılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

O dövrdə Heydər Əliyevin Naxçıvana və naxçıvanlılara böyük məhəbbətlə atdığı bu kimi addımlar böyük cəsarət nümunəsi idi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyev Özünün şəxsi nüfuzundan və yüksək diplomatik bacarığından istifadə edərək qonşu Türkiyənin, İranın siyasi rəhbərliyi ilə təmasları gücləndirdi və blokada şəraitində yaşayan muxtar respublikanı erməni təcavüzündən, aclıqdan, səfalətdən qorudu.

Xalqla həmrəylik şəraitində Naxçıvanı xilas edən Heydər Əliyev növbəti mərhələdə - 1993-cü ildən sonra xilaskarlıq missiyasını bütün Azərbaycan miqyasında davam etdirdi. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə respublikanın siyasi hakimiyyətinə qayıdan Heydər Əliyev aldığı müdrik qərarlarla xaosa, anarxiyaya, iqtisadi tənəzzülə son qoydu və Azərbaycan inkişafa istiqamətləndi.

Bu gün böyük siyasətçi Heydər Əliyevin parlaq ideyaları yenə də bir mayak kimi müstəqil Azərbaycanın həyatına işıq salır. Son 23 ildə Prezident İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu siyasətin varisliyini təmin etməklə ölkəmizi müasir dövlət kimi uğurla inkişaf etdirir. Bu gün Azərbaycan zirvələrdədir, özünün keşməkeşli tarixinin ən yaxşı dönəmlərindən birini yaşayır, Vətən müharibəsində, 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan parlaq qələbələr, eləcə də postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" proqramının uğurla reallaşdırılması bizi qürurlandırır və Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirir. Bu gün quruculuğun, tarixin izlərinin bərpasının mərkəzinə çevrilən əziz Şuşamız çal-çağırlıdır. Artıq azad Şuşa mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edir. Elə bu günlərdə tarixi şəhərimizdə IV Şuça Qlobal Media Forumu baş tutdu və Prezident İlham Əliyev Forumun tribunasından dünyaya öz mesajlarını çatdırdı...

**Heydər Əliyev: "1990-cı ilin yayı idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilməsə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş"**

*Mübariz ABDULLAYEV*

# İlham Əliyev Berlində...

## Bakı-Berlin: strateji mərhələyə yüksələn münasibətlər



İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşmək üçün Berlindəki "Villa Borsig" iqamətgahına gəlib.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev burada xatirə kitabını imzaladı.

Sonra Azərbaycan və Almaniya prezidentlərinin təkbətək görüşü keçirildi.



***

İyulun 21-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Almaniya Prezidenti Azərbaycana səfərini məmnunluqla xatırladı.

Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə etdi.

O, Azərbaycan-Ermənistan sülh gündəliyində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı.

Almaniya Prezidenti Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi qeyd etdi.

Dövlətimizin başçısı da öz növbəsində Frank-Valter Ştaynmayerin ölkəmizə səfərini məmnunluqla xatırladı.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rola toxunan Prezident İlham Əliyev ölkəmizin artıq Almaniya və Avstriyaya da qaz ixrac etdiyini dedi.



Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında münasibətlərin dostluq xarakteri daşıdığı qeyd edildi, iqtisadi və biznes əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu bildirildi, dövlətimizin başçısının Almaniyaya bu səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə olundu.

Bu səfər zamanı Azərbaycan-Almaniya əlaqələrinin strateji mahiyyət kəsb etməsi ilə əlaqədar Prezident İlham Əliyev və Kansler Fridrix Mertsin imzalayacağı "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyəti vurğulandı.

Görüşdə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri xatırlandı, bu xüsusda Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı qeyd edildi.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti və bu dəhlizdə Azərbaycanın önəmli roluna toxunuldu, Yaxın Şərqdə yaranmış vəziyyət barədə fikir mübadiləsi aparıldı.



***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 21-də Berlində rəsmi qarşılanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts dövlətimizin başçısını qarşılayıb.



***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə təkbətək görüşü keçirilib.

Sonra görüş geniş tərkibdə davam etdirilib.



***

İyulun 21-də Berlində Almaniya-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"ni imzaladılar.

Tədbirdə, həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə imzalandı.

***

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Berlində mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

Bu gün (dünən - red.) imzalanmış sənədlərin Azərbaycan-Almaniya əlaqələrini yüksə səviyyəyə qaldıracağına əmin olduğunu bildirən Prezident İlham Əliyev vurğulayıb ki, biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq.

Azərbaycan-Almaniya əlaqələrinin təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəyini deyən dövlətimizin başçısı qeyd edib ki, Almaniya Avropa İttifaqının aparıcı ölkəsi kimi Cənubi Qafqazda öz təsirini artırmaqdadır.

"Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə yaşıl enerjisini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır", - deyən Prezident İlham Əliyev Azərbaycan qazının Avropa İttifaqına üzv 10 ölkəyə çatdırıldığını və bunun enerji təhlükəsizliyi üçün çox böyük töhfə olduğunu xatırladıb.

Bağlantılarla və tranzit imkanları ilə bağlı da Almaniya-Azərbaycan əməkdaşlığının çox böyük əhəmiyyəti var, çünki Almaniyanın şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə ediblər. Dövlətimizin başçısı deyib ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir və keçən il Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır.

Prezident İlham Əliyev Almaniyanın Federal Kansleri Fridrix Merts ilə mətbuat konfransında Avropa İttifaqı ilə əlaqələrə toxunub.



Dövlətimizin başçısı bununla bağlı deyib: "Bu il biz həm Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının Prezidenti xanım Fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq. Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək".

Ötən il Almaniya ilə ticarət dövriyyəmizin təxminən 1,5 milyard dollar təşkil etdiyini söyləyən Prezident İlham Əliyev ixracımızın əsas hissəsini xam neft təşkil etdiyini bəyan edib. "Azərbaycan tələb olunan həcmdə neft tədarük edə bilər. Bu, həm daxili mənbələr, həm də enerji şirkətimiz SOCAR-ın treydinq bölməsi vasitəsilə həyata keçirilə bilər. Yəni burada hər hansı problem yoxdur",- deyə dövlətimizin başçısı vurğulayıb.

Almaniyanın Federal Kansleri Fridrix Merts Prezident İlham Əliyevlə mətbuat konfransında söyləyib ki, Almaniyanın və Azərbaycanın siyasi təhlükəsizliyi və iqtisadi maraqları əhəmiyyətli şəkildə böyük müharibələrin təsirinə məruz qalıb. O deyib ki, ayrı-ayrılıqda bu müharibələr fərqli olsa belə, biz danışıqlar yolu ilə həllin əldə edilməsini müdafiə edirik.

"Burada bizə əminliyi verən odur ki, yalnız bu halda, son nəticədə davamlı sülhə, təhlükəsizliyə və sabitliyə nail olmaq olar", - deyə Kansler vurğulayıb.

Sülh, təhlükəsizlik və sabitlik bizə Cənubi Qafqazda da lazımdır. Almaniyanın və Avropa İttifaqının tam marağındadır ki, geosiyasi cəhətdən vacib olan bu region sakitləşsin.

Prezident İlham Əliyevi sülh müqaviləsinin paraflanması münasibətilə təbrik edən Kansler deyib: "Sözügedən müqavilə Azərbaycan və Ermənistan tərəfindən möhürləndi. Bu tarixi müqavilə uzun münaqişənin daimi olaraq öhdəsindən gəlməyə yeni şans verir".

Kansler Almaniya ilə Azərbaycan arasındakı münasibətlərin çox dinamik şəkildə inkişaf etdiyindən məmnun olduğunu bildirib və əlavə edib ki, regionda daha böyük sabitliyin təmin olunması ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar yaradır.

"Bu gün Birgə Bəyannaməni imzalamaqla münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün mühüm təməl qoyuruq. Eyni zamanda, Azərbaycan-Almaniya Biznes Şurasının təsis edilməsi barədə razılığa gəldik" -deyən Kansler bildirib ki, bu, hər iki ölkə üçün mühüm siqnaldır və Almaniya Azərbaycanla münasibətlərin genişləndirilməsinə ciddi yanaşır.

"Orta Şərqdə davam edən böhran fonunda neft, eləcə də Cənub Qaz Dəhlizi vasitəsilə qaz təchizatı sahəsində əməkdaşlığımız xüsusi əhəmiyyət kəsb edir", - deyə Fridrix Merts vurğulayıb.

# Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası (bundan sonra "Tərəflər") Tərəflər arasında uzunmüddətli və dostluq münasibətlərini tanıyırlar. Onlar qarşılıqlı etimada və müxtəlif sahələrdə maraqların üst-üstə düşməsinə əsaslanan ikitərəfli tərəfdaşlıq və əməkdaşlığı dərinləşdirməklə bağlı qarşılıqlı arzularını təsdiqləyirlər. Tərəflər bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmətlərini xatırlayaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, Helsinki Yekun Aktına, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına, sülhü və təhlükəsizliyi təşviq edən digər beynəlxalq hüquqi sənədlərə birgə sadiqliklərini bir daha təsdiqləyirlər.

Tərəflər Azərbaycan-Ermənistan münasibətlərindəki tarixi irəliləyişi, xüsusilə də 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarını alqışlayırlar. Almaniya Federativ Respublikası iki ölkənin regionda davamlı sülhə nail olmağa hədəflənmiş səylərini tam dəstəklədiyini bir daha təsdiqləyir.

Tərəflər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayır və siyasi dialoqun və praktik əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədilə artan əməkdaşlığı qeyd edirlər. Onlar, həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və Azərbaycan Respublikası ilə Aİ arasında mövcud dialoq mexanizmlərindən tam həcmdə istifadənin əhəmiyyətini vurğulayırlar. Tərəflər, həmçinin Azərbaycan ilə Aİ üzv dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi səylərini yüksək dəyərləndirirlər.

**1.** Tərəflər aşağıdakı sahələrdə, lakin bununla məhdudlaşmadan, əməkdaşlıq etmək niyyətindədirlər:

a. Siyasi və Diplomatik Əməkdaşlıq: nazirliklər və qurumlar arasında müntəzəm məsləhətləşmələr, yüksəksəviyyəli səfərlərin mübadiləsi; qarşılıqlı faydalı əməkdaşlıq sahələrinin daha da dərinləşdirilməsi üçün məxsusi-məzmunlu yüksəksəviyyəli dialoqlar; ortaq maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə praktiki əməkdaşlığın gücləndirilməsi.

b. İqtisadi və Ticarət Əməkdaşlığı: ikitərəfli ticarətin və sərmayə imkanlarının təşviqi, ikitərəfli iqtisadi əlaqələrin təşviqi mexanizmi kimi ticarət və sərmayə üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyətinin davam etdirilməsi; kənd təsərrüfatı, davamlı iqtisadi inkişaf, yaşıl enerji, yaşıl və aşağıkarbonlu hidrogen, enerji səmərəliliyi kimi sahələrdə əməkdaşlığın tam potensialından istifadə edərək, bağlantılar və infrastruktur, qaz da daxil olmaqla enerji axınları, iqlim fəaliyyəti və ətraf mühitin mühafizəsi, eləcə də davamlı su ehtiyatlarının idarə olunması kimi qlobal və regional əhəmiyyətli məsələlər üzrə əməkdaşlığın artırılması.

c. Təhlükəsizlik və Müdafiə: insan və narkotiklərin qanunsuz dövriyyəsi, mina təmizləmə sahəsində əməkdaşlıq və yardım da daxil olmaqla regional və qlobal təhlükəsizlik məsələləri üzrə nazirlər səviyyəsində dialoqun davam etdirilməsi; müdafiə sənayesində əməkdaşlığın təşviqi; Müdafiə Akademiyaları və qurumları arasında mütəxəssis və tələbə mübadiləsinin davam etdirilməsi; ortaq narahatlıq doğuran sahələrdə məlumat və ən yaxşı təcrübələrin mübadiləsi.

d. Mədəniyyət, Təhsil, Dil və İnsanlararası mübadilələr: qarşılıqlı anlaşmanı, mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq edən mədəni mübadilə fəaliyyətləri və proqramları; innovativ və rəqəmsal təhsil, peşə təhsili, birgə tədqiqat layihələri və akademik mübadilələr üzrə gələcək əməkdaşlıq imkanları barədə dialoq perspektivləri.

e. Elm, Texnologiya və İnnovasiya: rəqəmsal transformasiya, sənaye modernləşdirilməsi və inkişafda olan texnologiyalar sahəsində əməkdaşlığın təşviqi; təhsil və elm sahələrində əməkdaşlıq.

**2.** Bu siyasi bəyannaməyə əsasən fəaliyyətlərin həyata keçirilməsi resursların mövcudluğuna tabe və Tərəflərin müvafiq qanun və qaydalarına uyğun olacaqdır.

21 iyul 2026-cı il tarixində Berlin şəhərində ingilis dilində iki nüsxədə imzalanmışdır.

***Azərbaycan Respublikası adından***
***İlham Əliyev***
***Prezident***

***Almaniya Federativ Respublikası adından***
***Fridrix Merts***
***Kansler***

# Azərbaycan-Almaniya tərəfdaşlığı: yeni geosiyasi nizamın strateji oxu

## Bakı Avropa ittifaqı ilə siyasi-iqtisadi gündəmini genişləndirir

**Son illər Cənubi Qafqazın inkişaf trayektoriyası beynəlxalq aləmin, xüsusilə böyük iqtisadi-siyasi güc mərkəzlərinin diqqətindədir. Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallıqlar və bu reallıqların nəticə etibarı ilə yeni nizama verdiyi töhfələr təqdir edilir. Təsadüfi deyil ki, dünyanın aparıcı siyasi-iqtisadi mərkəzləri, dövlətləri və təşkilatları Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını həm əyani surətdə bildirirlər, həm də apardıqları siyasətlə nümayiş etdirirlər. Bakı həm çoxtərəfli, həm də ikitərəfli çərçivədə münasibətlərini yeni çağırışlar, standartlar üzərində inkişaf etdirir. Yeri gəlmişkən, bir müddət öncə Bakıda səfərdə olan Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin səsləndirdiyi bəyanatlar isə artıq köhnə qitə ilə Bakı arasında yeni münasibətlər sisteminin formalaşacağından xəbər verirdi. Həm Aİ, həm də ayrı-ayrı dövlətlər səviyyəsində müsbət əlaqələrin dinamikası artmaqdadır. Bu mənada Azərbaycanın Aİ-nin aparıcı dövlətlərindən olan Almaniya ilə münasibətləri xüsusi əhəmiyyət daşıyır. İki ölkə arasında müsbət əlaqələr mövcuddur və bu əlaqələr çoxşaxəli xarakterə malikdir.**



### Tarixi əlaqələr...

Qeyd olunmalıdır ki, Almaniya Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul edir, ölkəmizin regionda lider mövqeyini, həmçinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Almaniya Azərbaycanın müstəqilliyini 12 yanvar 1992-ci il tarixində tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 20 fevral 1992-ci il tarixində qurulub. Azərbaycanın Almaniyada Səfirliyi 2 sentyabr 1992-ci il, Almaniyanın Azərbaycanda Səfirliyi isə 22 sentyabr 1992-ci il tarixində açılıb.

Qeyd edək ki, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından sonra əlaqələrin inkişafında ən mühüm dönüş nöqtəsi Ulu Öndər Heydər Əliyevin 1996-cı il iyulun 1-4-də Almaniyaya etdiyi tarixi səfər olub. Həmin səfər müstəqilliyini yenicə bərpa etmiş gənc Azərbaycan dövlətinin Avropanın ən böyük güclərindən biri ilə uzunmüddətli tərəfdaşlıq strategiyasının təməlini qoydu. Bu səfər gənc respublikanın müstəqil xarici siyasət kursunun Avropada qəbul olunmasını təmin etdi. Ulu Öndərin Almaniyanın aparıcı siyasi partiyalarının və Şimali Atlantika Assambleyasının təmsilçiləri ilə dialoqu, habelə diaspor fəalları ilə strateji təmasları münasibətlərin çoxtərəfli ictimai-siyasi zəminini formalaşdırdı.

Azərbaycan və Almaniya arasında davamlı siyasi dialoq mövcuddur. Dövlət başçıları müxtəlif platformalarda vaxtaşırı görüşürlər. İndiyədək Azərbaycan Prezidentinin Almaniyaya son səfəri də nəzərə alınmaqla 18 rəsmi və işgüzar səfəri baş tutub. Digər səviyyələrdə də sıx təmaslar qurulub. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, müstəqillik illərində Azərbaycanın xarici işlər naziri Almaniyaya 14 rəsmi və işgüzar səfər həyata keçirib. Almaniyanın xarici işlər naziri isə respublikamızda 8 rəsmi və işgüzar səfərdə olub. Parlamentlərarası əlaqələr də uğurla inkişaf edir. İndiyədək iki ölkə arasında 77 sənəd imzalanıb. İmzalanan hüquqi sənədlər isə ikitərəfli əlaqələrin daha da güclənməsinə xüsusi töhfə verir.

İki ölkə arasında ticarət əlaqələri də müsbət dinamika ilə inkişaf edir. 2025-ci ildə Azərbaycan ilə Almaniya arasında ticarət dövriyyəsi 1 milyard 376 milyon dollar təşkil edib. Bu isə o deməkdir ki, son beş ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 68 faiz artıb.

### Almaniya Azərbaycanın orta güc statusunu qəbul edir

Yeni dövrdə isə artıq münasibətlər məhz müasir çağırışlar üzərindən formalaşır. Başqa sözlə, əgər Almaniya Aİ-nin və Transatlantik Alyansın aparıcı dövlətlərindən biri qismində çıxış edirsə, Bakı da Cənubi Qafqazın lideri və yerləşdiyi mühüm coğrafiyanın orta gücü kimi qəbul olunur. Bakı-Berlin münasibətlərində bu yeni xətt yaxın gələcək üçün mühüm strateji istiqamət olaraq formalaşacaq.

Əslində bir məqama xüsusi diqqət yetirmək lazımdır - ötən ilin aprelində Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Bakıya reallaşan səfəri zamanı rəsmi Berlin Azərbaycanın bölgədəki rolunu açıq şəkildə dilə gətirmişdi. Ştaynmayer bildirmişdi ki, "Yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərqlə, o cümlədən Cənub-Qərbi Asiya və Çinlə Almaniyanın ticarət əlaqələrində ölkənizin rolu var. Bilirik ki, hazırkı mövcud yolların imkanları məhduddur. Ölkənizdən keçən yollar, həmçinin Orta Dəhlizin rolu alman iqtisadiyyatı üçün vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı olacaq. Son illərdə cərəyan etmiş hadisələrdən sonra Cənubi Qafqaz regionunuz daha sabit bölgəyə çevriləcək". Almaniya Prezidentinin bu fikirləri Azərbaycanın Cənubi Qafqazın həm iqtisadi, həm də siyasi kimi, eyni zamanda orta güc statusunda apardığı siyasətin açıq izahı idi. Bu fikirlərdə qeyd olunurdu ki:

- Ölkəmiz tranzit xarakterli mühüm bir regionda təhlükəsizlik amili formalaşdırıb;
- İqtisadi münasibətlərdə yalnız şəffaflığa və dürüstlüyə, dotsluğa əsaslanan tezislər səsləndirir;
- Coğrafi imkanları yaxın - uzaq tərəfdaşlar üçün səmərəli istifadə halına gətirib;
- İstər ənənəvi, istərsə də yeni enerji mühitində etimadlı tərəfdaş kimi özünü sübut edib;
- Fərqli sivilizasiyaların birgə əməkdaşlıq planlarının formalaşdırılmasında yer alması kimi vacib ştrixləri ön sıraya çıxarıb
- Nəhayət, fərqli düşüncəyə, fərqli baxışlara malik siyasi qütblər arsında barışdırıcı missiya həyata keçirir.

Beləliklə, son bir il ərzində Avrasiyanın qütblərarası münasibətlər sisteminin qurulmasında Azərbaycanın açıq rolu və fəaliyyəti göz önündədir - Almaniyanın Bakı ilə tərəfdaşlığın möhkəmləndirilməsi istiqamətində addımları isə yeni nizamın ştrixləri ilə üst-üstə düşür.

### Berlin sülh prosesini dəstəkləyir...

Rəsmi Berlin həm də Azərbaycanın sülh gündəliyini açıq şəkildə dəstəkləyir. Ötən il Almaniya Prezidenti Bakıda mətbuata açıqlamasında bildirmişdi ki, "Siz qonşu Ermənistan arasında sülh münasibətləri haqqında danışdınız. Bu sülh prosesinin çox böyük əhəmiyyəti var. Kənardan müşahidə edən bir şəxs kimi deyə bilərəm ki, bu, bizə böyük təəssürat bağışlayır. Yəni, son bir il ərzində çox böyük addımlar atılıb, çox böyük irəliləyişlər olub. Bütün çətinliklərə və maneələrə baxmayaraq, bu yol qət edilib, xeyli addımlar atılıb və sona qədər getmək lazımdır. Bununla belə, təbii olaraq, kompromislər üçün cəsarət, siyasi iradə lazımdır, nəticədə siyasi müqavilə həqiqətən də həyata keçə bilər və qüvvəyə minər. Ümid edirəm ki, hər şey alınacaq və biz, həmçinin kənardan bacardığımız qədər, necə mümkündürsə öz dəstəyimizi verəcəyik".

Almaniyanın bu balanslaşdırılmış və konstruktiv yanaşması regional kommunikasiyaların açılması və beynəlxalq hüquq prinsipləri çərçivəsində yekun sülh sazişinin imzalanması prosesinə diplomatik dəstək baxımından böyük əhəmiyyət kəsb edir. Almaniyanın sülh prosesinə dəstəyi, Azərbaycanın təşəbbüsələrini təqdir etməsi isə olduqca mühüm amildir. Berlin hər zaman qlobal proseslərə Aİ çərçivəsində praqmatik baxışı ilə seçilib. Məhz sülhə münasibətdə də bu mövqe aydın şəkildə ortaya qoyulur. Almaniya rəsmilərinin sülh ilə bağlı fikirləri, təşviqləri məhz bu tezisə əsaslanır - sülhün və təhlükəsizliyin təmini Cənubi Qafqaz üçün yeni bir gələcək olduğu qədər Avropanın da özünün iqtisadi imkanlarını genişləndirməsi üçün bir fürsətdir. Başqa sözlə, Almaniya qəbul edir ki, Bakının sülh təşəbbüsləri köhnə qitənin siyasi və iqtisadi güc mərkəzi kimi təmərküzləşməsinə mühüm töhfələr verəcək. Bütün bu məqamlar kontekstindən dəyərləndirilikdə Prezident İlham Əliyevin nəzərdə tutulan səfəri iki ölkənin qlobal çağırışlara qarşı vahid iqtisadi və siyasi platformada birləşmək iradəsini açıq şəkildə nümayiş etdirir.

### Bakı yeni nizamın "açar ölkəsi" statusunda...

Hazırkı mənzərədə geosiyasi transformasiyalar, qlobal enerji bazarlarında baş verən dəyişikliklər və yeni nəqliyyat marşrutlarına artan tələbat Azərbaycanın strateji əhəmiyyətini daha da yüksəldir. Ölkənin malik olduğu təbii ehtiyatlar, inkişaf etmiş nəqliyyat infrastrukturu, etibarlı tərəfdaş imici və praqmatik xarici siyasət kursu onu regionun sabitlik və əməkdaşlıq gündəliyinin formalaşdırılmasında əsas iştirakçı kimi ön plana çıxarır. Bu baxımdan, Azərbaycanın Cənubi Qafqazda oynadığı rol yalnız milli maraqların təmin edilməsi ilə məhdudlaşmır, həm də daha geniş Avrasiya məkanında sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinə xidmət edir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Bakıda mətbuata bəyanatında bildirmişdi ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir: "Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik". Azərbaycan-Almaniya əlaqələrinin dərinləşməsi isə öz növbəsində Aİ-Azərbaycan münasibətlərinin dinamikasına da öz müsbət təsirini göstərir. Sirr deyil ki, Aİ özünün tarixinin ən mühüm transformasiyalarından birini keçməkdədir. Rusiya-Ukrayna müharibəsi, nəticə etibarı ilə qlobal təchizat zəncirlərinin pozulması, enerji bazarlarındakı təlatümlər və bu mənada Aİ-nin özünün enerji təminatını həyata keçirmək üçün yaşadığı çətinliklər köhnə qitənin siyasi gündəminə təsirlər edir. Baş verənlər Avropa İttifaqının yeni beynəlxalq reallıqlar fonunda dayanıqlı inkişaf modeli cıza bilmədiyini göstərdi. Nəticədə Brüssel enerji təhlükəsizliyinin, nəqliyyat bağlantılarının və kritik xammal təchizatının şaxələndirilməsini strateji prioritet elan edərək Avrasiyanın yeni geoiqtisadi xəritəsinə fərqli prizmadan baxmağa başladı. Məhz bu dəyişən geosiyasi mühit Azərbaycanın Avropa üçün əhəmiyyətini keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Əgər uzun illər Azərbaycan Avropa üçün əsasən karbohidrogen ixracatçısı kimi qəbul edilirdisə, bu gün ölkə artıq enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları və Avropa ilə Mərkəzi Asiyanı birləşdirən strateji kommunikasiyaların ayrılmaz hissəsi olaraq qiymətləndirilir. 2022-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması da məhz bu transformasiyanın siyasi ifadəsi idi. Həmin sənəd Azərbaycanın Avropaya təbii qaz ixracının artırılmasını, enerji əməkdaşlığının dərinləşdirilməsini və bərpaolunan enerji sahəsində yeni imkanların yaradılmasını nəzərdə tutur.

Bu gün Azərbaycan artıq Avropa İttifaqının 10 üzv dövləti də daxil olmaqla, 16 ölkəyə təbii qaz ixrac edir. Ən önəmlisi Azərbaycanın Avropaya qaz ixracı 2022-ci ildən əvvəlki 8 milyard kubmetrdən hazırda 13 milyard kubmetrə yüksəlib və 2027-ci ilədək bu göstəricinin azı 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. Cənub Qaz Dəhlizi isə Xəzər hövzəsini Avropa ilə birləşdirən alternativ enerji arteriyası kimi qitənin enerji təhlükəsizliyi strategiyasının əsas sütunlarından birinə çevrilib. TANAP və TAP kəmərləri Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətində xüsusi əhəmiyyət qazanaraq Azərbaycanın qitənin enerji təhlükəsizliyindəki rolunu daha da gücləndirib.

Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti paralel olaraq kommunikasiya və nəqliyyat dəhlizləri üzərindən də izah edilə bilər. Şimal marşrutunun müharibə və sanksiyalar səbəbindən əvvəlki funksionallığını itirməsi, cənub istiqamətində isə geosiyasi risklərin artması fonunda Orta Dəhliz Avropa ilə Mərkəzi Asiyanı birləşdirən ən etibarlı və perspektivli marşrut kimi ön plana çıxıb. Bu dəhlizin mərkəzində yerləşən Azərbaycan artıq təkcə tranzit ölkəsi deyil, Avropanın "Global Gateway" strategiyasında mühüm geoiqtisadi tərəfdaş kimi çıxış edir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər üzərindən formalaşan multimodal daşımalar sistemi Azərbaycanın bu dəhlizin əsas logistika qovşağına çevrildiyini göstərir. Məhz buna görə də Brüsselin Bakı ilə əməkdaşlığı bu gün enerji təhlükəsizliyi, logistika, rəqəmsal bağlantılar, yaşıl enerji və kritik xammal tədarükünü əhatə edən kompleks strateji tərəfdaşlıq məzmunu qazanıb.

**P.İSMAYILOV**

# Çin Kommunist Partiyasının nümayəndə heyəti Milli Məclisdə olub



İyulun 21-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan-Çin münasibətlərinin dinamik inkişafı və əldə olunmuş nailiyyətlər məmnunluqla qeyd edilib, parlamentlərarası və partiyalararası əməkdaşlığın daha da möhkəmləndirilməsi, iqtisadi, ticarət, təhsil, mədəniyyət, humanitar, o cümlədən gənclər sahəsində əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub.

Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyətini salamlayan spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan ilə Çin arasında son illərdə bütün istiqamətlər üzrə dinamik inkişaf edən əməkdaşlığın əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin arasındakı dostluq münasibətləri dayanır.

Bildirilib ki, Azərbaycan hər zaman birmənalı olaraq "Vahid Çin" siyasətini və Çinin ərazi bütövlüyünü dəstəkləyib. Biz də Çinin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndiririk.

Milli Məclisin sədri Prezident İlham Əliyevin 2025-ci ildə Çin Xalq Respublikasına həyata keçirdiyi səfərlərinin, xüsusən dövlət səfəri zamanı Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasının ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib.

Sahibə Qafarova parlamentlərarası əlaqələrin Azərbaycan-Çin münasibətlərinin mühüm



tərkib hissəsi olduğunu deyib. O, cari il Çinə işgüzar səfəri çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədri Cao Lıci ilə keçirdiyi görüşdən söz açaraq, parlamentlərarası dialoqun, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla davam etdiyini söyləyib.

Milli Məclisin sədri Azərbaycan ilə Çin arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqla yanaşı, partiyalararası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirib. O, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında formalaşmış səmərəli əlaqələrin və imzalanmış Anlaşma Memorandumunun bu əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verdiyini vurğulayıb.



ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuay Çin ilə Azərbaycan arasında münasibətlərin son illərdə uğurla inkişaf etdiyini, iki ölkə rəhbərləri arasında formalaşmış yüksək səviyyəli münasibətlərin bu əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığını qeyd edib.

Kanq Şuay Milli Məclisin sədri Sahibə Qafarovanın Çin Xalq Respublikasına səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, onun Azərbaycan ilə Çin arasında, o cümlədən partiyalararası dialoqun inkişafına verdiyi dəstəyi yüksək qiymətləndirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dövlətlərarası münasibətlər sistemində siyasi dialoqun, parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışaraq, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini açıqlayıb.

Çinin Azərbaycandakı səfiri Lu Mey Azərbaycanla Çin arasındakı münasibətlərin müxtəlif aspektləri barədə fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Milli mətbuatımız 151 yaşında...

**Elə peşə bayramları var ki, onlar yalnız hansısa konkret bir sahədə çalışan insanlar tərəfindən deyil, bütün xalq, ölkə və dövlət səviyyəsində qeyd olunur. 22 iyul - Milli  Mətbuat Günü məhz belə bayramlar sırasında yer alır. Bu gün 151 il bundan əvvəl təməli qoyulan  milli mətbuatımızın bayramı respublikamızda böyük coşqu və sevinclə qeyd edilir. Milli mətbatımız ötən 151 ildə  müxtəlif inkişaf mərhələrindən keçib. Hər dövr fərqli xüsusiyyətlərə malik olsa da, milli mətbuatımız bütün dönəmlərdə öz missiyasına sadiq qalıb və cəmiyyətin güzgüsü olmağı bacarıb.**

## "Əkinçi"dən başlayan yol

1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin işıq üzü görməsi ilə Azərbaycan milli mətbuatının əsası qoyulub. Həmin vaxtdan indiyədək mətbuatımız cəmiyyətimizin maariflənməsində, milli kimliyimizin formalaşmasında, söz azadlığının təmin olunmasında misilsiz rol oynayıb. Milli mətbuatımızın təşəkkül tapdığı dövr Azərbaycan xalqı üçün çətin və ziddiyyətli bir mərhələ idi. Bu elə bir dövr idi ki, digər xalqlar inkişafa, təhsilə, elm öyrənməyə can atırdılar. Azərbaycan cəmiyyətində isə dini xurafatın və imperiyanın məqsədli siyasəti insanları təhsildən, elmi biliklərdən uzaq salırdı. XIX əsrin II yarısında xalqımızın iqtisadi və ictimai inkişafındakı çatışmazlıqlar milli mətbuatımızın yaranmasını zəruri edirdi. Görkəmli ziyalı Həsən bəy Zərdabi də bu zərurəti dərk edərək uzun mübarizədən sonra ana dilində "Əkinçi" qəzetinin çap edilməsinə nail olub.

O dövrün reallıqları fonunda belə bir icazənin alınması sıradan bir hadisə deyildi. Təkcə bir faktı qeyd edək ki, Həsən bəy Zərdabi milli mətbuat orqanını təsis etmək üçün 15 ilə yaxın mübarizə aparmışdı. 1861-1865-ci illərdə Moskva Universitetinin Fizika-Riyaziyyat fakültəsində təhsil aldığı illərdə belə, Azərbaycan dilində qəzet nəşr etmək istəmişdi. Lakin onun təşəbbüslərinin qarşısı hər dəfə müxtəlif vasitələrlə alınmışdı. Yeganə səbəb də bu idi ki, imperiya qüvvələri Azərbaycan xalqının maariflənməsini istəmirdilər. Nəhayət, uzun və gərgin mübarizədən sonra 1875-ci ildə Zərdabi öz arzusuna çatdı və istədiyi qəzetin nəşri üçün Bakı qubernatorundan icazə almağa müvəffəq oldu.

Mətbuat cəmiyyətin, zamanın güzgüsü olduğu kimi, respublikamızın hər inkişaf mərhələsi də mətbuatımızda fərqli izlər qoyub. Bu, özünü həm bütövlükdə mətbuatın formalaşmasında, onun maddi-texniki təchizatında, həm də ideoloji istiqamətlərin müəyyənləşməsində göstərib. İndiyədək milli mətbuatımızın üç mərhələdən keçdiyini deyə bilərik. Əvvəlcə "Əkinçi"nin yarandığı dövrə nəzər salaq. 19-cu əsrin sonu - 20-ci əsrin əvvəllərində Bakı təkcə Qafqazın iqtisadi deyil, həm də mədəni mərkəzinə çevrilmişdi. O zamankı Bakıda çoxsaylı rus, gürcü, erməni və digər xalqların xeyriyyə cəmiyyətləri, qəzetləri fəaliyyət göstərirdi. Bu qədər qarşıdurma və rəqabət şəraitində milli mətbuatı formalaşdırmaq, onu inkişaf etdirmək, azad söz üçün mübarizə aparmaq çox çətin idi. Etiraf etməliyik ki, o dövrdə "Əkinçi" milli mətbuatın yeni nəsli üçün bir mayak, bələdçi oldu. Təsadüfi deyil ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldıqda onun qurucularının demək olar əksəriyyəti yazarlar və mətbuat camiəsinin nümayəndələri idilər.

Sonrakı mərhələdə  Azərbaycan 70 il ərzində keçmiş ittifaqın tərkibində olub. Bu dövlətin ideoloji əsasları məhdud çərçivə ilə əhatələnmişdi. Həmçinin jurnalistlər də peşə faliyyət-




## Üç tarixi mərhələdə inkişaf

lərində bu çırçivələrdən kənara çıxa bilməzdilər. Onlar konkret qadağaları nəzərə almaqla yazıb yaratmalı idilər.

Lakin 70 illik sovet dövrünün ideoloji qadağalarına rəğmən, həmin illərdə də Azərbaycan mətbuatı inkişaf edib və bu inkişafla paralel şəkildə milli dilimiz də püxtələşib, jurnalistikamızda peşəkarlıq artıb. Mətbuatımızın xoşbəxtliyi ondadır ki, senzuranın pik həddə olduğu SSRİ dönəmində belə əzmkar jurnalistlərimizin səyi ilə Zərdabi ənənələri unudulmayıb. Əsas məqamlardan biri də sovet dönəmində də milli düşüncənin qorunması ilə bağlıdır. Burada böyük siyasətçi Heydər Əliyevin həm Azərbaycana rəhbərlik etdiyi, həm də Moskvada yüksək vəzifələrdə çalışdığı illərdə milli yaddaşın qorunması, mədəniyyətimizin inkişafı naminə göstərdiyi davamlı səylərin təsirini xüsusi qeyd etmək lazımdır. Heydər Əliyevimn şəxsiyyəti və fəaliyyətii Azərbaycan xalqı üçün qürur mənbəyi idi və milli düşüncənin formalaşması baxımından mühüm əhəmiyyət daşıyırdı. Heydər Əliyev Azərbaycanın gələcək intibahına, müstəqilliyinə hesablanan ideyalarını cəmiyyətimizə məhz mətbuat vasitəsilə çatdırırdı. Heydər Əliyevin səyləri ilə görkəmli mədəniyyət xadimlərinin, yazıçı və şairlərin yubileylərinin keçirilməsinin, Bakıda onlara abidələrin ucaldılmasının mətbuatda geniş işıqlandırılması xalqın milli yaddaşının qorunmasına,  milli kimlik hisslərinin güclənməsinə öz təsirini göstırirdi.

Müstəqillik dövrünün çağırışları və reallıqları isə tam fərqlidir. Müstəqillik illərində hər zaman dövlətimiz tərəfindən media orqanlarının sərbəst fəaliyyəti, söz və fikir azadlığının təmin edilməsi, mətbuat problemlərinin həlli istiqamətində təşəbbüs göstərilib, mühüm qərarlar qəbul edilib. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Qanunun qəbul edilməsi, eləcə də 1998-ci ildə Azərbaycanda senzuranın ləğv olunması ilə bağlı Sərəncamın imzalanması mətbuatımızın tərəqqisi üçün ən böyük töhfələrindən hesab edilə bilər. Bu baxımdan  Prezident İlham Əliyevin ötən il imzaladığı "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamını da xüsusilə vurğulamaq mümkündür.

## Yeni dövrün çağırışları

21-ci əsrdə süni intellektin sürətlə yayılması, sosial şəbəkələrin təsiri, dezinformasiyanın artması jurnalistin peşəkarlığını və məsuliyyətini ön plana çıxarır. Mediamız bu çağırışlara uyğunlaşmalı, eyni zamanda, milli dəyərləri və peşə etikasını qoruyaraq fəaliyyət göstərməlidir. Əsas vəzifə-informasiyanı dəqiq, operativ və obyektiv şəkildə təqdim etməkdir. Cəmiyyətin informasiya ehtiyacını ödəmək, ictimai rəyə təsir etmək jurnalistikanın əsas funksiyası olaraq qalır.

Mətbuatımız, çoxsaylı jurnalistlər ordusu bu gün də - texniki imkanların dəyişdiyi bir dönəmdə də Zərdabi ənənəlıərini yaşatmaqla yenə də milli ideyaya sadiq olduqlarını nümayiş etdirirlər. Bunu 44 günlük Vətən müharinbəsi və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı günlərində jurnalistlərimizin ümumi qələbə naminə səfərbər olmaları bir daha təsdiqlədi. Ərazi bütövlüyünün və suverenliyin təmin olunması xalqımız və dövlətimiz üçün əsas ümummilli ideya idi və mətbuatımız da bu ideyaya sadiq qaldığını təsdiqlədi. Şübhə yoxdur ki, vətənpərvər ruhlu jurnalistlərimiz bundan sonra da milli ideyaya xidmət göstərməklə ənənəvi və yeni media platformalarında uğurla çalışacaqlar.

## Dünya mediası azad Şuşada toplaşır

Son illərdə azad Şuşada media forumlarının keçirilməsi ənənəsinin formalaşması Azərbaycanın söz, fikir azadlığına, media ilə açıq dialoqa necə böyük önəm verdiyini bir daha təsdiqləyir. I Şuşa Qlobal Media Forumu 2023-cü il iyulun 21-də "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı təşkil olunub. İlk forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edib. "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda keçirilən forumda tanınmış və nüfuzlu beynəlxalq media rəhbərləri, ekspertləri müasir dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, yeni informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və "feyk nyus"la mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə ediblər. Eyni zamanda, forumda Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü irəli sürülüb.

2024-cü il iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumunda 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu iştirak edib. Forum çərçivəsində müxtəlif mövzularda 4 panel sessiya təşkil olunub.

Sayca üçüncü forum 2025-ci il 19-21 iyul tarixlərində Xankəndi və Şuşa şəhərlərində keçirilib. "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzularını əhatə edən III Forumda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri iştirak ediblər. Forum çərçivəsində 3 panel sessiya, "Süni intellekt dövründə jurnalistika: Avtomatlaşdırma şəraitində həqiqətin qorunması" mövzusunda təkbətək görüş təşkil olunub.

Ümumilikdə, 81 ölkədən 600-ə yaxın media rəhbərini, jurnalisti, eksperti və rəsmi şəxsi bir araya gətirən I, II və III forumlarda informasiya təhlükəsizliyi, media savadlılığı, süni intellekt, rəqəmsal transformasiya, dezinformasiyaya qarşı mübarizə və beynəlxalq media əməkdaşlığı kimi aktual məsələlər müzakirə olunub.

Bir neçə gün bundan əvvəl yekunlaşan  IV Şuşa Qlobal Media Forumu "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunub. Foruma dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxslər qatılıb. Tədbirdə 30-a yaxın beynəlxalq informasiya agentliyi, 60-dan çox aparıcı media qurumu, eləcə də beynəlxalq təşkilatların nümayəndələri təmsil olunub. Panel müzakirələrdə medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu, ictimai etimadın bərpası, dezinformasiyaya qarşı beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi mühüm mövzuların müzakirələri aparılıb.

*Mübariz FEYİZLİ*

# 103-cü hökumət...

## Endi Börnham Böyük Britaniyanın yeni Baş naziri oldu...

Böyük Britaniyanın Baş naziri Kir Starmerin Bukinqem sarayında Kral III Çarlzla görüşərək vəzifəsindən istefasını rəsmiləşdirməsinin ardından Baş nazir kimi səlahiyyətlərinə rəsmi şəkildə xitam verilib. İyulunu 20-də isə kral III Çarlz ölkə hökumətini formalaşdırmaqla bağlı rəsmi olaraq Börnhama tapşırıq verib. Xatırladaq ki, Mançester şəhərinin 56 yaşlı keçmiş meri Endi Börnham ötən cümə günü Leyboristlər Partiyasının rəhbərliyində Kir Starmeri əvəzləyib. Qeyd edək ki, Börnhamın Böyük Britaniyanın növbəti baş naziri olacağı faktı bir neçə həftə öncədən məlum olsa da, rəsmi olaraq yalnız bazar ertəsi kralın tapşırığı ilə vəzifəsinə başlayıb. Beləliklə, Börnham kabineti Böyük Britaniya tarixində rəsmi 103-cü hökumət oldu.



### Meriyadan Baş nazirliyə...

Endi Börnham 1970-ci ildə İngiltərənin şimalındakı Liverpul şəhərində anadan olub. O, Liverpulun simvollarından sayılan "Everton" Futbol Klubunun qatı azarkeşidir. Kembric Universitetində dilçilik ixtisası üzrə təhsil alan Börnham gənc yaşlarından siyasətlə maraqlanıb və Leyborist Partiyasının üzvü olub. 31 yaşında ilk dəfə millət vəkili seçilən Börnham o zamankı Baş nazir Qordon Braunun diqqətini cəlb edir və onun kabinetində vəzifə alır - bir müddət Səhiyyə naziri vəzifəsində çalışır. London karyerası ərzində iki dəfə partiya daxilində seçkilərə qatılsa da, hər ikisində məğlub olub.

2017-ci ildə Börnham Londonu tərk edir və "böyük siyasətçi" olmağın əvəzinə Mançester meri olmağı məqsədəuyğun sayır. Lakin illər keçsə də Leyboristlər Partiyasının lideri olmaq arzusundan da əl çəkmir - qaydalara görə, partiya rəhbəri olmaq üçün mütləq şəkildə parlament üzvü kimi təmsil olunmalısan. Məhz bu səbəbdən bu ilin əvvəlində Börnham parlamentə qayıtmağa cəhd göstərmişdi - partiyadan Şimali İngiltərədə əlavə seçkilərdə iştirak etmək üçün icazə istəmişdi. Partiya isə onun bu istəyinə imtina cavabını vermişdi. Həmin ərazidə "Yaşıllar" partiyasının namizədinin sensasion qələbəsi isə Baş nazir Kir Starmerə daha bir böhran yaşatdı - partiya ona qarşı Şimali İngiltərəyə nəzarəti itirməklə bağlı mühüm ittihamlar irəli sürdü.

Leyboristlər Partiyasında "sosialist" kimi xarakterizə olunan Börnham partiyanın "yumşaq sol" qanadı hesab olunur. Onun ən mühüm xidmətlərindən biri kimi isə COVID-19 pandemiyası zamanı Mançester şəhərində görülən tədbirlərə peşəkarcasına nəzarət etməsi olmuşdu. O, karantin dövründə işçi qüvvəsinin 80 faizini maaşsız işdən çıxara biləcək müəssisələr üçün səmərəsiz qrant sisteminin istifadəsinin qarşısını aldı, çünki qalan 20 faizi mükafatlandırmaq üçün dövlət vəsaitlərindən istifadə cəmiyyətdə bərabərsizliyi daha da artıra və müstəqil gəlir mənbələri əvəzinə dövlət subsidiyalarından asılı olan çoxlu sayda yoxsul insan yarada bilərdi. Endi Börnhamın məntiqi arqumentləri dinlənildi və hökumət səviyyəsində təsir göstərdi.

Ötən ayın 18-də Makerfild seçkilərində səslərin 54 faizini toplayan Endi Börnham əsas rəqibi, İslahat Partiyasının namizədi Robert Kenyonu 9231 səs qabaqladı. Qeyd edək ki, bu seçki sırf təsadüfdən irəli gəlirdi - yerli seçkilərdə katastrofik nəticələrlə üz-üzə qalan Leyboristlər partiyasında millət vəkili Coş Saymon etiraz əlaməti olaraq istefa vermişdi - Börnhamın parlamentə yolu da məhz belə açıldı.

Endi Börnhamın əsas yerli seçkilərdə qəti qələbəsi onun yenidən partiya liderliyi yarışına girməsi ilə nəticələndi. Börnhamın artan siyasi profili və YouGov və digərləri kimi milli sorğularda təsdiq reytinqinin kəskin şəkildə ən yüksək səviyyəyə yüksəlməsi, əvəzində isə Baş nazir Starmerin təsdiq reytinqinin kəskin şəkildə azalması və partiya daxili dəstəyinin zəifləməsi partiyada lider əvəzlənməsinə səbəb oldu. Yeni lider kimi Börnhamın parityası qarşısında əsas vəzifəsi isə Leyborist Partiyasının reytinqinin yenidən qaldırılmasıdır.

### Yeni kabinet: gedənlər və qalanlar...

Yeni Baş nazir artıq hökumət kabinetinin əsas üzvlərini də açıqlayıb. Təyinatlara əsasən, Con Hili maliyyə naziri vəzifəsinə gətirilib. Ed Miliband ölkənin yeni xarici işlər naziri təyin olunub. Şabana Mahmud daxili işlər naziri vəzifəsini qoruyub saxlayıb. Keçmiş xarici işlər naziri İvett Kuper isə səhiyyə naziri təyin edilib. Baş nazirin Ofisi, həmçinin bildirib ki, Pat Makfadden əmək və pensiyalar naziri vəzifəsində fəaliyyətini davam etdirəcək.

Yeni maliyyə naziri Con Hili ötən ay Kir Starmer hökumətində müdafiə naziri vəzifəsindən istefa vermişdi. O, Maliyyə Nazirliyini müdafiə sahəsinə investisiya planını maliyyələşdirmək istəməməkdə ittiham etmiş, sonradan ayrılan əlavə vəsaitin ölkənin təhlükəsizliyinin təmin edilməsi üçün kifayət etmədiyini bildirmişdi.

Müxalifət partiyaları Con Hilin təyinatını ehtiyatla qarşılayıblar. "O, indi Müdafiə İnvestisiya Planının düzgün maliyyələşməsini təmin edə biləcək", - deyə Mühafizəkarların lideri Kemi Badenok bildirib: "Mühafizəkarlar sosial xərcləri azaltmaq və müdafiəni maliyyələşdirmək üçün onunla işləməyə hazırdırlar. Biz vergiləri artıra və daha çox borc ala bilmərik."

Liberal Demokratların lideri Ed Deyvi isə X-də yazıb ki, Hil "illərdir Mühafizəkarların ixtisarlarından və Starmerin qətiyyətsizliyindən sonra silahlı qüvvələrimizi yenidən qurmağın zəruriliyindən" yaxşı xəbərdardır.

Börnham həmçinin ötən ilin dekabrına qədər nəqliyyat naziri vəzifəsində çalışan yaxın müttəfiqi Luiz Heyqi Hökumət Departamentlərinin Koordinasiya naziri vəzifəsinə təyin edib.

Starmerin rəhbərliyi dövründə ədliyyə naziri və Baş nazirin müavini olan kansler Reyçel Rivz, mənzil naziri Stiv Rid, biznes naziri Peter Kayl, üç kabinet vəzifəsi tutan və hökumət departamentinin işini əlaqələndirən Starmerin siyasi müşaviri Darren Cons və bir neçə digər kabinet üzvü isə istefalarını elan ediblər.

### Əsas diqqət daxili islahatlaradır...

Bazar ertəsi günü hökumət başçısının iqamətgahına gələn Börnham özünün əsas hədəflərini açıqlayıb. İlk çıxışında o siyasətçilərin qarşıdakı çağırışlara cavab vermək üçün fəaliyyətlərini gücləndirməli olduqlarını deyib. Endi Börnham insanların siyasətdən narazı olduğunu etiraf edib və bildirib ki, hökuməti buna cavab verməlidir. "Mən sizi eşidirəm. Biz kifayət qədər yaxşı olmamışıq və daha yaxşı olmalıyıq. Elə də olacaq", - deyə o tərəfdarlarına səslənib.

Yeni Baş nazir ölkədə yeni siyasi yanaşmanın formalaşdırılacağını, siyasətin qarşıdurmadan daha çox problemlərin həllinə yönələcəyini vurğulayıb. O, 1980-ci illərdə həyata keçirilən özəlləşdirmə və sənayesizləşdirmə siyasətini yanlış istiqamətlər adlandıraraq, bir çox bölgələrin hələ də bunun mənfi təsirlərini hiss etdiyini qeyd edib. Börnham hökumətin səlahiyyətləri mərkəzdən bölgələrə ötürəcəyini, əsas xidmətlərin daha əlçatan olması üçün onların üzərində dövlət nəzarətinin gücləndiriləcəyini bildirib.

Baş nazir yaşayış xərclərinin azaldılmasına yönəlmiş ilk tədbirləri də açıqlayıb. O əlavə edib ki, bu ilin sonuna qədər Böyük Britaniya üçün 10 illik inkişaf planını təqdim edəcək. Börnham bildirib ki, Baş nazir kimi verəcəyi ilk göstəriş ölkədə küçələrdə yaşayan insanların probleminin aradan qaldırılması ilə bağlı olacaq. O çıxışının sonunda ölkədə birlik və ümid çağırışı edib.

Endi Börnham vəzifəyə başladıqdan sonra ilk mühüm qərarını da açıqlayıb. O, bu ilin oktyabr ayından etibarən ev təsərrüfatlarının elektrik enerjisi ödənişlərinə tətbiq olunan 5 faizlik əlavə dəyər vergisinin (ƏDV) sıfıra endiriləcəyini bildirib. Hökumətin hesablamalarına görə, bu dəyişiklik nəticəsində orta hesabla hər bir ailə ildə təxminən 45 funt sterlinq qənaət edəcək. Biznes naziri Conatan Reynolds deyib ki, vergi güzəşti cari maliyyə ilinin sonunadək maliyyələşdirilib. Onun sözlərinə görə, bunun üçün əvvəlki Baş nazir Kir Starmer hökumətinin planlaşdırdığı rəqəmsal şəxsiyyət vəsiqəsi proqramı ləğv olunub və ayrılmış vəsait bu məqsədə yönəldilib.

Reynolds əlavə edib ki, elektrik təchizatçıları ƏDV-nin ləğvindən yaranan güzəşti istehlakçıların hesablarına tam şəkildə tətbiq edəcək və bu sahədə hər hansı problem gözlənilmir.

### Xarici siyasət prioritetləri dəyişmir

Siyasi mütəxəssislərin fikrincə, Endi Börnhamın Baş nazir seçilməsi Böyük Britaniyanın xarici siyasət kursunda fundamental dəyişikliklər vəd etmir. Daxili siyasi islahatların fonunda xarici siyasət hədəfləri yerində qalır. Böyük Britaniyanın əsas müttəfiqi qismində yenə də ABŞ çıxış edəcək. Bu faktoloji şəkildə də təsdiqlənib. Belə ki, yeni Baş naziri Endi Börnham vəzifəsinin icrasına başladıqdan sonra ilk beynəlxalq telefon danışığını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampla aparıb. Dauninq Stritin qarşısında ilk çıxışını etdikdən sonra Trampla əlaqə saxlayan Börnham bununla Baş nazir kimi ilk xarici təmasını reallaşdırıb. Tərəflər arasında aparılan telefon danışığının məzmunu açıqlanmasa da, mövzunun təhlükəsizlik, əməkdaşlıq və ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı olduğu güman edilir.

Yeni Baş nazirin Ukrayna-Rusiya müharibəsi ilə bağlı mövqeyi də özünün sələfinin siyasətini davam etdirmək olacaq. Belə ki, bu faktı Börnham Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığında bildirib. Bu barədə Baş nazirin Ofisi məlumat yayıb. Məlumata görə, Endi Börnham Böyük Britaniyanın Ukrayna xalqına dəstəyə sadiq qaldığını və Rusiyaya münasibətdə mövcud siyasətini davam etdirəcəyini vurğulayıb.

Telefon danışığı zamanı Baş nazir Zelenskini Böyük Britaniyaya dəvət edib və Ukraynanın, eləcə də Avropanın müdafiəsinin gücləndirilməsi məsələlərini müzakirə etmək niyyətində olduğunu bildirib.

**P.İSMAYILOV**

# Avropa İttifaqında ciddi fikir ayrılığı...

## 6 üzv ölkə Rusiyaya qarşı yeni sanksiyalarla razılaşmır

Avropa İttifaqında (Aİ) Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi ilə bağlı ciddi fikir ayrılığı yaranıb. "Financial Times" qəzetinin məlumatına görə, Avropa ölkələri başqa bir dövlətə görə maliyyə itkiləri vermək istəmir və sanksiya siyasəti böhran keçirir. Aİ-nin 6 üzv ölkəsi - Yunanıstan, Fransa, İtaliya, Almaniya, Avstriya və Portuqaliya Brüsselin təklif etdiyi bəzi sanksiyaların ya yumşaldılmasını, ya da tamamilə paketdən çıxarılmasını tələb edir. Qəzetə məlumat verən Avropa diplomatlarının sözlərinə görə, üzv dövlətlərin yeni sanksiyalara bu miqyasda etiraz etməsi son illərdə görünməmiş haldır.

### 21-ci paketlə bağlı müxtəlif tələblər irəli sürülür

Xatırladaq ki, iyulun 13-də XİN başçılarının görüşündən sonra Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallas Rusiyaya qarşı 21-ci sanksiyalar paketi üzrə razılığa gələ bilmədiklərini, lakin danışıqların yekun mərhələdə olduğunu bəyan edib: "Təəssüf edirəm ki, 21-ci paketlə bağlı razılıq əldə edə bilmədik, baxmayaraq ki, biz ona kifayət qədər yaxınıq". Onun sözlərinə görə, yeni paket üzrə razılaşmanın olmamasına baxmayaraq, nazirlər Aİ-nin müxtəlif sanksiya rejimləri çərçivəsində 250-dən çox fərdi sanksiyanın daxil edilməsini razılaşdırıblar. O, bunu Rusiya-Ukrayna müharibəsi başlayandan bəri fərdi sanksiyaların ən böyük raundu adlandırıb.



Kallas etiraf edib ki, üzv dövlətlər paketlə bağlı müxtəlif tələblər və etirazlar irəli sürürlər, çünki müharibə artıq bir neçə ildir davam edir və bütün Aİ ölkələrinin iqtisadiyyatlarına təsir göstərir. Lakin, onun sözlərinə görə, Avropa iqtisadiyyatı üçün ən yaxşı həll yolu müharibənin dayandırılmasıdır, bu isə Moskvaya təzyiqin saxlanılmasını tələb edir. O, sanksiyalar paketindən məhz hansı müddəaların çıxarıla biləcəyini açıqlamaqdan imtina edib. Bununla yanaşı, Aİ diplomatiyasının rəhbəri Avropa Komissiyası tərəfindən ilkin olaraq təklif edilən paketin danışıqlar zamanı dəyişikliklərə məruz qaldığını təsdiqləyib: "Təkliflərin başlanğıcda maksimum dərəcədə güclü olması həmişə yaxşıdır. Anlayırıq ki, danışıqlar gedişində bəzi müddəalar çıxarılacaq, lakin yekunda paket öz gücünü qorumalıdır".

Xatırladaq ki, iyunun 9-da Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen əsasən Rusiyanın neft ixracı və bank sisteminə qarşı yönələn 21-ci sanksiyalar paketini təqdim etmişdi. Onun sözlərinə görə, yeni paket Rusiyanın enerji daşıyıcılarının ixracından əldə etdiyi gəlirlərə təzyiqin saxlanmasına yönəlib. Avropa Komissiyası qlobal neft bazarındakı dəyişkənlik fonunda mövcud məhdudiyyətləri qorumaq üçün Rusiya neftinin qiymət tavanının korreksiya mexanizminin gələn ilin yanvarına qədər dayandırılmasını təklif edib. Aİ enerji sektorunda Rusiya neftinin daşınması ilə əlaqəli daha 30 gəmini sanksiya siyahısına daxil etməyi təklif edib. İlk dəfə olaraq məhdudiyyətlər "kölgə donanması"na yardımçı xidmətlər göstərən gəmilərə və şirkətlərə şamil ediləcək.

### 27 üzv ölkənin razılığı tələb olunur

Qeyd edək ki, Avropa İttifaqında Rusiyaya qarşı sanksiyalar yalnız 27 üzv ölkənin yekdil razılığı ilə qəbul oluna bilər. Məhz bu səbəbdən Brüsseldə danışıqlar dörd gün davam etsə də, tərəflər ortaq mövqeyə gələ bilməyiblər. Həmin ölkələr öz şirkətlərinin maraqlarını qorumaq üçün məhdudiyyətlərin yumşaldılmasını, hətta Rusiyanın dondurulmuş bəzi aktivlərinin azad edilməsini tələb edir. İyulun 13-də Aİ xarici işlər nazirləri banklar, müdafiə sənayesi və energetika sektorunu hədəf alan 21-ci sanksiya paketini razılaşdıra bilməyiblər. Xüsusilə Yunanıstan, yerli gəmiçilik biznesinə zərbə vuracağı əsası ilə Rusiya neftinə qiymət həddinin tətbiq olunması mexanizminə qarşı çıxıb. Rəsmi Afina Rusiyanın mayeləşdirilmiş təbii qazının (LNG) üçüncü ölkələrə daşınmasına icazə verilməyəcəyi təqdirdə bütöv sanksiyalar paketini dəstəkləməyəcəyini açıqlayıb. Diplomatların sözlərinə görə, bəyanatlarda həmrəylik ifadə edilsə də, danışıqlar masası arxasında ölkələr öz biznes maraqlarını müdafiə edir. Hər kəsin istisnalar tələb etməsi sanksiyalar paketini effektsiz və mənasız hala gətirir.

Analitiklər hesab edirlər ki, enerji təhlükəsizliyi, iqtisadi maraqlar və milli prioritetlər Aİ daxilində Rusiyaya qarşı vahid mövqenin qorunmasını getdikcə çətinləşdirir.

### 31 Rusiya bankı Aİ-nin hədəfindədir

Maliyyə sektorunda daha 31 Rusiya bankı üçün əməliyyat qadağasının genişləndirilməsi təklif olunur. Məhdudiyyətlər sanksiyaya məruz qalmış Rusiya strukturlarına xidmət göstərən və ya məhdudlaşdırıcı tədbirlərdən yayınmağa kömək edən üçüncü ölkələrin 20 bankı, kriptovalyuta şirkəti, platforması və neft treyderlərini əhatə edəcək. Fon der Lyayenin sözlərinə görə, Avropa Komissiyası ilk dəfə olaraq Rusiyaya qarşı sanksiya rejimindən yayınmağa kömək edən üçüncü ölkələrin ayrı-ayrı platformaları tərəfindən kriptoxidmətlərin göstərilməsinə tam qadağa mexanizminin tətbiqini təklif edir. Eyni zamanda, ümumi dəyəri təxminən 60 milyon avro olan malların, o cümlədən ayrı-ayrı metal növləri, metal filizləri və avtomobil komponentlərinin idxalına məhdudiyyətlər təklif olunur.

Bütün bunlara baxmayaraq, Avropa İttifaqı Rusiyada dörd fiziki şəxs və beş hüquqi şəxsə qarşı sanksiya tətbiq edib. Yeni sanksiyalar Rusiyada söz azadlığının, məlumat əldə etmək və birləşmək hüququnun məhdudlaşdırılması məqsədilə istifadə olunan texnoloji nəzarət vasitələrini və onları hazırlayan şirkətləri hədəf alır. Sanksiya siyahısına Rusiyanın "VK Company" (VKontakte) şirkəti və onun törəmə müəssisəsi olan "Communication Platform" daxil edilib. Aİ bu şirkətləri Federal Təhlükəsizlik Xidmətinin (FSB) nəzarəti altında fəaliyyət göstərən və "Max App" mobil tətbiqini hazırlayıb idarə etməkdə ittiham edir. Həmçinin internet və mobil rabitənin izlənməsi üçün istifadə olunan SORM nəzarət sistemi ilə bağlı avadanlıq və proqram təminatı hazırlayan "Citadel", "VAS Experts" və "Norsi-Trans" şirkətlərinə də sanksiyalar tətbiq olunub. Bundan əlavə, həmin şirkətlərdə rəhbər vəzifələr tutan dörd şəxs də sanksiya siyahısına salınıb. Bununla Aİ-nin qlobal insan hüquqları sanksiyaları rejimi çərçivəsində siyahıya daxil edilən şəxslərin sayı 98-ə, hüquqi şəxslərin sayı isə 7-yə çatıb. Sanksiyalar aktivlərin dondurulmasını, Aİ vətəndaşları və şirkətləri tərəfindən onlara maliyyə vəsaitinin ayrılmasının qadağan edilməsini, həmçinin Aİ ərazisinə giriş və tranzit məhdudiyyətlərini nəzərdə tutur.

Xatırladaq ki, Aİ-nin Rusiyaya qarşı 20-ci sanksiyalar paketi bu ilin aprelində qəbul olunmuşdu. 20-ci sanksiyalar paketi Moskvaya təzyiqi artırmaq və onun Ukraynaya qarşı hərbi əməliyyatları davam etdirmək imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. Sanksiyalar məhdudiyyətlərdən yayınmaya qarşı mübarizəyə aydın şəkildə istiqamətlənib və enerji sektorunu, maliyyə xidmətlərini, ticarəti, eləcə də informasiya məkanını əhatə edir. İlk dəfə olaraq sanksiyalardan yayınmağa qarşı xüsusi mübarizə mexanizmi aktivləşdirilib. Belə ki, paket çərçivəsində Rusiyanın enerji sektorunun 36 şirkətinə, o cümlədən neftin kəşfiyyatı, hasilatı, emalı və nəqlində iştirak edən müəssisələrə qarşı məhdudiyyətlər tətbiq edilib. Aİ həmçinin "kölgə donanması" adlandırılan donanmaya qarşı tədbirləri genişləndirib: sanksiya siyahısına daha 46 gəmi daxil edilib, bununla da onların ümumi sayı 632-yə çatıb. Əlavə olaraq, Aİ-dən Rusiyaya tanker satışına məhdudiyyətlər tətbiq edilib və müqavilələrə onların Moskvanın maraqları naminə istifadəsinin yolverilməzliyini nəzərdə tutan şərtin daxil edilməsi məcburi edilib. Murmansk və Tuapsedəki Rusiya limanları, eləcə də İndoneziyadakı Karimun neft terminalı da sanksiyalara məruz qalıb. Perspektivdə G7 tərəfdaşları ilə razılaşdırıldıqdan sonra Rusiya nefti və neft məhsullarının daşınması üçün dəniz xidmətlərinin göstərilməsinə qadağa qoyulması planlaşdırılır. Ümumilikdə, 20-ci paketə 120 fiziki və hüquqi şəxs daxil edilib. Onlara qarşı aktivlərin dondurulması və maliyyə resurslarının təqdim edilməsinə qadağa, fiziki şəxslər üçün isə həmçinin ölkəyə giriş qadağası tətbiq edilir.

**N.BAYRAMLI**

# 10 günlük atəşkəs təklifi...

## Tərəflər təklifi niyə qəbul etmirlər?

**Prezident Donald Tramp İranla müharibədə həlledici mərhələyə yaxınlaşır və ABŞ ilə İsrail rəsmiləri hadisələrin yalnız iki mümkün inkişaf ssenarisini nəzərdən keçirirlər. Birinci variant Hörmüz boğazının yenidən açılmasına yönəlmiş 10 günlük atəşkəs rejiminə razılıq vermək, ikinci variant isə Tehranı geri çəkilməyə məcbur etmək məqsədilə İsraillə birlikdə genişmiqyaslı hərbi kampaniyaya başlamaqdır. "Axios" nəşrinin yazdığına görə, ABŞ Prezidenti hələlik yekun qərar verməyib. Yazıda bildirilir ki, rəsmilər hansı variantın seçiləcəyinin yaxın bir neçə gün ərzində müəyyənləşəcəyini düşünürlər.**

### Vaşinqton təklifləri nəzərdən keçirir

Məlumata görə, Qətər, Misir, Pakistan və digər regional vasitəçilər ABŞ və İrana 10 günlük atəşkəs təklifi təqdim ediblər: "ABŞ rəsmiləri bildirirlər ki, Tramp administrasiyası təklifi nəzərdən keçirir və İsraili diplomatik imkanları məhdudlaşdıra biləcək addımlardan çəkinməyə çağırıb. Bununla yanaşı, Vaşinqton danışıqların nəticəsiz qalacağı ehtimalına da hazırlaşır. ABŞ ordusu son günlər bölgəyə onlarla qırıcı və havada yanacaq dolduran təyyarə göndərərək mümkün eskalasiyaya hazırlıq məqsədilə qüvvələrini gücləndirib". Nəşrdə qeyd olunur ki, İsrail də silahlı qüvvələrini yüksək hazırlıq vəziyyətinə gətirib və müharibənin yaxın günlərdə genişmiqyaslı, koordinasiyalı hərbi kampaniyaya çevrilməsi ehtimalına hazırlaşır.

Bildirilir ki, yeni atəşkəs təklifi döyüş əməliyyatlarının dayandırılmasını, Hörmüz boğazındakı hər iki gəmiçilik marşrutunun yenidən açılmasını, həmçinin Vaşinqton və Tehrana pozulmuş Anlaşma Memorandumunu bərpa etmək üçün imkan yaradılmasını nəzərdə tutur. Bununla belə, hələ nə ABŞ, nə də İran təklifi qəbul edib. Yazıda qeyd olunur ki, hər iki tərəf atəşkəsə razılıq verməzdən əvvəl mövqelərini gücləndirmək məqsədilə əlavə zərbələr endirməyə çalışır.

### Vasitəçilər Hörmüz boğazının tam açılmasına çalışır

"Axios"un məlumatına görə, regional mənbələr vasitəçilərin iyulun 11-də Omanın paytaxtı Məskətdə Oman, İran və Qətər nümayəndələrinin müzakirə etdiyi təklif üzərində işlədiklərini bildirirlər. "Təklif Hörmüz boğazında gəmiçilik marşrutlarının tam açılmasını nəzərdə tutur. 10 günlük atəşkəs dövründə ABŞ və İran boğazdan keçidin tənzimlənməsinə dair daha uzunmüddətli razılaşma üzərində danışıqlar aparacaqlar. Regional mənbələrdən birinin sözlərinə görə, variantlardan biri İrana dəniz təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və digər xidmətlərə görə məqbul xidmət haqları toplamaq imkanı verə bilər. Mənbə nümunə kimi Malakka boğazını göstərib. Həmin modeldə Malayziya, İndoneziya və Sinqapur ümumi tranzit rüsumu əvəzinə göstərilən konkret xidmətlərə görə ödəniş alırlar. Digər təklif isə ödənişlərin Beynəlxalq Dəniz Təşkilatının iştirakı ilə idarə olunacaq birgə fonda yönəldilməsini nəzərdə tutur", - deyə nəşr yazır.

Yazıda bildirilir ki, vasitəçilik prosesində Qətərin Baş naziri Məhəmməd bin Əbdülrəhman Əl-Tani, Qətərin ABŞ-dakı səfiri Əli Əl-Təvadi, Pakistan ordusunun baş komandanı, feldmarşal Asim Munir, Misirin xarici işlər naziri Bədr Əbdüləti və Omanın xarici işlər naziri Bədr əl-Busaidi iştirak edirlər. Regional mənbələrdən biri "Axios"a bildirib ki, Ağ Ev təklifi ciddi şəkildə nəzərdən keçirməzdən əvvəl İordaniyada ABŞ hərbçilərinin öldürülməsinə cavab olaraq İrana qarşı hərbi əməliyyatları daha bir neçə gün davam etdirə bilər.

Ümumiyyətlə, son eskalasiya zamanı hücumlar qarşılıqlı olaraq daha da şiddətlənib. ABŞ Mərkəzi Komandanlığı İrana qarşı növbəti hücum dalğasını başa çatdırdığını açıqlayıb. Mərkəzi Komandanlığın yaydığı məlumata görə, ABŞ qüvvələri İranın Hörmüz boğazından keçən ticarət gəmilərinə hücum imkanlarını zəiflətmək məqsədilə ölkənin hərbi komandanlıq mərkəzlərinə, dəniz qüvvələrinin obyektlərinə, raket və pilotsuz uçuş aparatlarının buraxılış məntəqələrinə, eləcə də hava hücumundan müdafiə sistemlərinə zərbələr endirib. Bəyanatda qeyd olunub ki, həyati əhəmiyyət daşıyan beynəlxalq dəniz dəhlizi ilə ticarət gəmilərinin tranziti davam edir: "May ayının əvvəlindən etibarən Mərkəzi Komandanlığın qüvvələri təxminən 900 ticarət gəmisinin və 450 milyon barel xam neftin təhlükəsiz tranzitinə dəstək verib. Amerika qüvvələri boğazdan sərbəst və maneəsiz keçmək istəyən mülki dənizçilərə qarşı əsassız hücumlara görə İranı məsuliyyətə cəlb etməyə hazırdır".



### ABŞ hərbçiləri həlak olub

"CBS News" isə Pentaqon rəsmilərinə istinadla məlumat yayıb ki, İranın bu ay Yaxın Şərqdəki ABŞ hərbi bazalarına endirdiyi zərbələr nəticəsində 100-ə yaxın amerikalı hərbçi yaralanıb. Bildirilir ki, yaralanan hərbçilərin əksəriyyəti artıq xidmətə qayıdıb. ABŞ müdafiə nazirinin ictimai əlaqələr üzrə köməkçisi Şon Parnell məlumatı təsdiqləyərək deyib ki, iyulun 7-dən bəri müxtəlif dərəcəli xəsarət alan hərbçilərin təxminən 96 faizi yenidən xidmətə başlayıb. Onun sözlərinə görə, yaralanmaların əksəriyyəti yüngül beyin silkələnməsi ilə bağlıdır.

Lakin İranın son raket hücumları ABŞ-ın Yaxın Şərqdə yerləşdirilmiş hərbi qüvvələrinin müdafiəsində mövcud çətinlikləri də üzə çıxarıb. "The Wall Street Journal" (WSJ) nəşrinin yazdığına görə, İordaniyadakı Müvəffəq Salti aviabazasına hücum zamanı üç raketin ABŞ-ın hava hücumundan müdafiə sistemlərini keçməsi Vaşinqtonun bölgədəki təxminən 50 min hərbçisinin təhlükəsizliyinin təmin olunmasında problemlərin qaldığını göstərir. Həmin hücum zamanı yaralananlarla yanaşı, iki amerikalı hərbçi həlak olub, biri isə itkin düşüb. Qəzet, həmçinin İranın hələ də əhəmiyyətli sayda raket və pilotsuz uçuş aparatına malik olduğunu qeyd edib.

ABŞ Prezidenti isə "Truth" sosial şəbəkə hesabında İranın Amerika Birləşmiş Ştatları (ABŞ) əsgərlərinin öldürülməsinin əvəzini ödəyəcəyini yazıb. O, əlavə edib ki, bununla bağlı müharibə katibi Pit Heqsetə, Birgə Qərargah Rəisləri Komitəsinin sədri Daniel Keynə və hər bir ordu liderinə tapşırıq verilib.

*N.BAYRAMLI*

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

əvvəli ötən saylarımızda

"Təzad cini" (1845) novellasında isə fiziki-bioloji varlığın, ruhundan ayrı dolanan bədənin ikili xarakterindən danışılır. Hekayə ölüm kamerasında yatan məhbusun dilindən nəql olunur. Onun fikrincə, yaranışdan hər bir insanın canına onu ağlının, idrakının hökmündən kənar gizli-gizli yönəldən, onu ağlasığmaz əməllərə təhrik eləyən, onu sağlam düşüncənin ziddinə getməyə, qaydaları pozmağa çağıran, tərs məntiqlə işləyən bir cin müsəllət olub - təzad cini. Bu cin uçurumun başında duran adamı özünü aşağı uçurlamağa səsləyir, dərin quyunun dibində marığa yatıb quyuya baxanları kamına çəkir. Qəhrəman əmindir ki, onu qətl törətməyə həmin o cin sövq eləyib. Bu irrasional təmayül özünüqoruma instinktiylə daimi münaqişə vəziyyətindədir, onun qoruduqlarını vurub dağıtmağa fürsət axtarır. Bu da bioloji orqanizmin ikili təbiətindən xəbər verir.

Hekayənin birinci yarısı deyilən yöndə nəzəri mülahizələr, ikinci yarısı müəllifin konsepsiyasına illüstrasiyadır. Təhkiyəçi mirasına göz dikdiyi bir nəfəri zəhərli şamın tüstüsüylə iz qoymadan necə öldürdüyünü yerli-yataqlı danışır. Polis ölümü bədbəxt hadisə kimi qeydə alır, qatildən heç kim şübhələnmir. Buna baxmayaraq adam illər boyu rahatlıq tapmır, bir gün çaşıb-dolaşıb sirrini faş eləyəcəyindən, özünü ələ verəcəyindən qorxur. Tez-tez özünə təskinlik, toxtaqlıq verir: "Qorxulu heç nə yoxdur". Adam arasında müdam özünü suçlu, şübhəli aparır, qəfil yerindən qopub gücü gəldikcə qaçmaqla, sonra da dayanıb dəli kimi gülməklə özü də istəmədən camaatın diqqətini çəkir. Bu minvalla özüylə oynamaqdan bezib günün birində cinayətini boynuna alır, içini didən cini canından çıxartmaq üçün özünü ələ verib başını cəllad kötüyünün üstünə qoyur.

Dostoyevskinin Raskolnikovuna rahatlıq verməyən də elə həmin çuğul, cığal cin idi. Bu hekayəni təkcə "Cinayət və cəza"ya yox, Freydin şüursuzluq konsepsiyasına, Tanatos (ölüm instinkti) nəzəriyyəsinə də müqəddimə saymaq olar. Halbuki onda hələ psixoanalizin banisi dünyaya gəlməmişdi, Erosun təzad qardaşı Tanatosun kəşfinə də hələ yetmiş-səksən il qalmışdı.

***

"Qara pişik" (1843) novellasında ölümə məhkum olunmuş daha bir qatilin hekayəsini dinləyirik. Bu adam da "təzad cini"nin əlində əsir-yesir qaldığından, şərə qarşı immuniteti olmadığından qana batıb. Onun cini şərabla bəslənir (bir-iki qədəh içkinin təsirindən başını itirib adamlıqdan çıxan müəllif özü də ömrü boyu baxtını kor, taleyini viran qoyan belə bir cinlə güləşmişdi), əyyaşlığa qurşanandan xarakteri büsbütün dəyişir. İndi - başı cəllad kötüyünün üstündə olanda yaxşı xatırlayır ki, uşaqlıqda, gənclikdə necə həlim xasiyyəti vardı, insanlar öz yerində, heyvanlara necə məhəbbət bəsləyər, şəfqətlə yanaşardı. Evləinəndən sonra arvadında da özündəkinə bənzər xüsusiyyətlər kəşf eləyən qəhrəman ikiqat xoşbəxt olur. Əl-ələ verib evdə cürbəcür quşlar, qızıl balıqlar, cins itlər, bunlarla yanaşı dovşan, meymun, pişik saxlayırlar. Pluton adlı qara pişiyi yiyəsi qalan bütün heyvanlardan daha çox əzizləyir. Pişik də ona möhkəm bağlanır, hara getsə, qarabaqara dalınca gəzir.

Di gəl, şeytan südünə dadanandan sonra qəhrəmanımız tündməzac, qaraqabaq, əsəbi olur, arvadına əvvəl-əvvəl qışqırmağa, sonra onu döyməyə başlayır. Heyvanlar da bu dəyişikliyi hiss eləyirlər, sahibi onları nəinki diqqətdən kənarda qoyur, onlarla da kobud davranır. Bir axşam evə yenə sərxoş gələn yiyəsi Plutonla məzələnəndə pişik onun əlini gəmirir, onda adam bıçağını çıxarıb pişiyin bir gözünü oyur. Səhər ayılıb elədiyinə peşman olsa da, axşama günahını şərabla çimizdirib "təmizliyə" çıxarır, tünd spirtlə "arılanıb-durulanıb" rahatlıq tapır. Pişiyin gözü bir müddət keçmiş sağalır, amma daha zavallı heyvan qorxusundan yiyəsinə yaxın gəlmir: "Əvvəllər məni çox sevən pişiyimin indi məndən qaçdığını görəndə pərişan oldum, amma bu duyğu getdikcə məni qıcıqlandırmağa başladı. Ardınca da zavallı canımı uçurumun kənarına gətirmiş pislik, yamanlıq bütün ruhumu sardı. Bu ruhi vəziyyətə fəlsəfədə ad tapmaq mümkün deyil. Pisliyin də insanın ilk, təməl instinktlərindən biri olduğuna, insan xarakterinə yön verən duyğulardan birini əmələ gətirdiyinə adım kimi inanıram. Şüurumuza, məntiqimizə həpmuş ehkamları, adətləri, qanunları məhz toxunulmaz olduqlarına görə pozmağa meyillənmirikmi? Məhz bu tərs təmayül məni uçuruma sürükləyən sonuncu qüvvə oldu. Sırf canlılara əziyyət vermək, xarakterimə zidd davranış göstərmək üçün məsum heyvanlara yamanlıq eləyirdim".

Bir səhər o, sevimli pişiyinin boynuna ip keçirib gözlərindən yaş süzülə-süzülə onu ağacdan asır. Ruhunun bağışlanma ehtimalı qalmasın deyə özünü belə bir ağır günaha batırır. Adam ən qansız yağıdan da artıq özünə düşmən kəsilir, canına müsəllət olmuş cin onu şeytan fəhləsi, günah arabasıtək müftə-müsəlləm özünün əleyhinə işlədir.

Həmin günün gecəsi naqılçının evi od tutub yanır. Ev yiyəsi, arvadı, bir də nökəri canlarını güc-bəlayla qurtarırlar. Evdən ancaq quru divarlar qalır. Plutonun kabusu yiyəsini qarabaqara izlədiyindən o, daimi sakini olduğu çirkli meyxanaların birindən asdığı pişiyə bənzər bir yiyəsiz pişik tapıb gətirir. Evə gətirəndən sonra eynən Pluton kimi bu pişiyin də bir gözünün oyulduğunu görür. Tezliklə o bu pişikdən də bezib diksinməyə başlayır, pişiyin ona, arvadına mehir salmağı ev sahibini əsəbiləşdirir. Zaman keçdikcə yiyəsi pişiyə əməlli-başlı kin bəsləyir, xəstəlikdən qaçırmış kimi ondan aralı durur. Pişiyə nifrəti artdıqca heyvan ona daha da çox yarınır. Yiyəsinin qara pişikdən qaçmağına bir səbəb də heyvanın boğazının altındakı ağ ləkəni kəndir yerinə bənzətməsi olur. Pişik əyyaş sahibinin gözünə Plutonun kabusu, günahının təcəllası, qarabasmatək görünür. Bu şeytani qarabasmaların təsiri altında xeyirin, yaxşılığın son qalıntıları da onun qəlbindən silinir: "Bir gün arvadımla birgə dağılmış evin zirzəmisinə endik. Ayağıma dolaşan pişik məni az qala pilləkəndən yıxacaqdı. Hirsimdən baltanı götürüb heyvanı vurmaq üçün qaldırdım. Arvadım qolumdan tutub pişiyi vurmağıma imkan vermədi. Bu, mənim şeytanımı daha da coşdurdu, baltanı var gücümlə arvadımın başına endirdim. O, cınqırını çıxarmadan yerindəcə keçindi".

Meyidi gizləməyin yollarını axtaran qatil çox götür-qoydan sonra cəsədi divara hörməyi qərara alır. İzi yaxşıca itirib mərdimazar pişiyi axtarır, ancaq pişik tapılmır. Çox keçməmiş polislər evə gəlib onu dindirirlər, başdansovdu bir axtarış aparıb getməyə hazırlaşırlar. Deməli, artıq rahat nəfəs almaq olar. Elə bu vaxt arxayınlaşmış qatil dilini, əlini saxlamayıb özü də bilmədən əməlini ifşa eləyir, içindən qəfil boylanıb meymun kimi quyruğunu oynadan, yiyəsini satan cini onu öz ayağıyla cəlladın hüzuruna göndərir. Uçurulan divardan həm qadının, həm də pişiyin cəsədi çıxır, günahları dil açıb əyyaş qatilin üzünə durur.

***

"Quyu və kəfkir" (1842) hekayəsini danışanın da səsi zindandan gəlir. Toledodakı inkvizisiya məhkəməsi onu ölümə məhkum eləyib, eşitdiyi son sözlər edam hökmünün mətni, son səs hökmü oxuyan inkvizitorun ona vızıltı kimi gələn avazı olub. Bundan sonra huşunu itirib, ayılanda özünü zülmət qaranlıq bir hücrədə tapıb. Hissiyyatı korşalsa da, ağlı hələ üstündədir: "Özümə gələndə yerimdən dik atıldım, bütün vücudum əsirdi. Əllərimi sağa-sola uzatsam da, addım atmaqdan çəkinirdim, diri-diri gömüldüyüm məzarın divarlarına toxunacağımdan qorxurdum. Bədənimi soyuq tər basmışdı, iri damcılar alnımda donub qalmışdı. Handan-hana tab gətirməyib ehtiyatla irəli yeridim, əllərimi qabağa uzadıb gözlərimi bərəltdim ki, bəlkə bir işıq ucu görə biləm... Nəhayət, əlim nəyəsə toxundu, deyəsən daş divar idi - hamar, yapışqan, soyuq. Divar boyunca ehtiyatla addımlayırdım, fəqət belə asta yerişlə zindanın boyunu ölçmək mümkün deyildi... Döşəmə soyuq, sürüşkən idi, birtəhər irəliləməyə başladım, ancaq ayağım dolaşdı, yıxıldım. Yorğunluq məni əldən salmışdı deyə qalxa bilmədim, eləcə yıxıldığım yerdə uzanıb yuxuya getdim. Oyananda hiss elədim ki, yanımda nəsə var, əlimi toxunduranda gördüm bir parça çörək, bir parç da sudur. Çörəyi tez təpişdirib doyunca su içdim..."

Sonra məhbus zindanın enini-boyunu ölçməyə bir də cəhd göstərir. Bu vaxt ayağı uzun dustaq köynəyinin ətəyinə ilişir, adam üzüqoylu yerə yıxılır. Başının çənədən yuxarı hissəsi, burnu boşda qaldığından aydın olur ki, burada dustaqlar üçün qazılmış dərin quyu var, əsərin qəhrəmanı da bu quyuya düşməkdən təsadüfən qurtulub. Görünür, suya nəsə qatıldığından çox keçməmiş dustağı yenə dərin yuxu aparır. Bu dəfə ayılanda başqa mənzərə görür: "Yerdən bir az hündür taxta oturacağın üzərində arxası üstə uzanmışdım. Məni belbağıya bənzər kəmərlə möhkəm bağlamışdılar. Kəməri üstümdən bir neçə dəfə aşırıb elə sıxmışdılar ki, yalnız başımı, bir də sol əlimi tərpədə bilirdim. Əlimin birini də ona görə azacıq boş saxlamışdılar ki, yanıma qoyulmuş saxsı qabdakı yeməyə uzada bilim. Su parçını görməyəndə dəhşətə gəldim..."

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Azərbaycanın demoqrafik xəritəsi...

## Son rəqəmlər nəyi göstərir?

**Ölkəmizdə həyata keçirilən sosialyönümlü dövlət proqramları əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, sosial müdafiə sisteminin gücləndirilməsinə və demoqrafik inkişafın dəstəklənməsinə mühüm töhfə verib. Məlumdur ki, hər bir ölkənin inkişafında həlledici rol məhz insan potensialı ilə bağlıdır. Bu mənada əhalinin siyahıyaalınması nəticəsində əldə edilmiş məlumatlar informasiya cəmiyyətinin qiymətli resursudur. Demoqrafik siyasətin düzgün qurulması isə əhalinin siyahıyaalınması prosesinin nəticələrindən çox asılıdır. Ölkənin sosial-iqtisadi vəziyyəti də əhali artımında mühüm rol oynayır.**

## Dünya əhalisinin sayında müsbət gözlənti

BMT-nin proqnozlarına görə, bir sıra Avropa ölkələrində əhalinin ümumi sayının azalmasına baxmayaraq, dünyada əhalinin ümumi sayı yaxın illərdə artacaq və 8 milyard nəfərdən çox olacaq. Məlumdur ki, əhalinin nəzarət olmadan artımı ilə mübarizə aparan ölkələr üçün hələ bunun universal həlli mövcud deyil, lakin bir sıra regionların təcrübəsi göstərir ki, bu problem həllolunandır. Bunun üçün hər bir ölkənin spesifik xüsusiyyətlərini nəzərə alan uzunmüddətli kompleks proqramların həyata keçirilməsi vacibdir. Bir daha qeyd etmək lazımdır ki, demoqrafik problemlər iqtisadi, sosial, siyasi, ekoloji və başqa problemlərlə sıx bağlıdır.

Adətən ölkələr çalışırlar ki, onlarda əhalinin artım tempi dünya əhalisinin, eləcə də, ətrafdakı ölkələrin sakinlərinin artım sürətindən geri qalmasın. Əhalinin normal artımı, yəni ümumi sayda və yaş qrupları arasında münasib balansın qorunub saxlanması milli təhlükəsizlik əhəmiyyəti daşıyan bir məsələdir. Bu baxımdan, Azərbaycanda kifayət qədər müsbət mənzərə mövcuddur.

Müasir dövrdə dəqiq statistik məlumatlar məşğulluq siyasətinin formalaşdırılmasından başlayaraq, təhsil, səhiyyə, sosial təminat, mənzil siyasəti və regional inkişaf proqramlarının hazırlanmasına qədər geniş spektrdə strateji planlaşdırmanın ayrılmaz tərkib hissəsinə çevrilib. Bu səbəbdən əhalinin statistik göstəricilərinin mütəmadi yenilənməsi və onların dərin təhlili həm mövcud sosial çağırışların vaxtında müəyyənləşdirilməsinə, həm də uzunmüddətli perspektivdə davamlı inkişafın təmin olunmasına xidmət edən mühüm amillər sırasında xüsusi yer tutur.

Dövlət Statistika Komitəsinin (DSK) ilin ilk beş ayı üzrə açıqladığı nikah, boşanma və doğum göstəriciləri ölkədə ailə institutunun və demoqrafik proseslərin hansı istiqamətdə dəyişdiyini göstərən mühüm siqnallar verir. Ekspertlər hesab edirlər ki, bu rəqəmlər yalnız statistika deyil, həm də sosial siyasət, ailə dəyərləri və gələcək demoqrafik inkişaf barədə müzakirələr üçün əsasdır.



## Boşanmaların sayı azalıb

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk beş ayında 15107 nikaha daxilolma və 8087 boşanma halları qeydə alınıb. DSK-nın məlumatına görə, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,7-dən 3,6-ya, boşanmaların sayı isə 2,0-dan 1,9-a düşüb.

## 10271638 nəfər olduq

Dövlət Statistika Komitəsi (DSK) ölkəmizdə doğum, ölüm, nikah və boşanma sayı ilə bağlı son rəqəmlərin hesabatını təqdim edib. Bu barədə Komitənin ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərini əks etdirən nəşrində qeyd olunub. DSK-dan verilən məlumata görə, ölkə əhalisinin sayı ilin əvvəlindən 9287 nəfər və ya 0,1 faiz artaraq 2026-cı il iyun ayının 1-i vəziyyətinə 10271638 nəfərə çatıb. Ölkə əhalisinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

**5 ayda 1184 əkiz, 48 üçəm doğulub**

Komitədən həmçinin bildirilib ki, bu ilin yanvar-may ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 34056 doğulan körpə qeydə alınıb. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 9,2-dən 8,0-a düşüb.

Bildirilib ki, doğulan körpələrin 53,5 faizi oğlan uşaqları, 46,5 faizi isə qız uşaqları olub. Doğulan körpələrdən 1184-ü əkiz, 48-i isə üçəmdir.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**


# İsti havada necə geyinək?

## Rəng, parça və düzgün seçim...

**Bir çox insan yay geyimini yalnız dəb baxımından qiymətləndirir. Mütəxəssislər isə bildirirlər ki, isti havalarda seçilən geyimlər orqanizmin istilik tənzimlənməsində, günvurma riskinin azalmasında, dəri sağlamlığının qorunmasında və ümumi həyat keyfiyyətinin yüksəldilməsində düşündüyümüzdən qat-qat böyük rol oynayır. Əslində, yay aylarında düzgün geyinmək təkcə estetik görünüş məsələsi deyil, həm də sağlam həyat tərzinin vacib tərkib hissəsidir. Həkimlər hər nə qədər “temperaturun yüksək olduğu günlərdə açıq havada olmayın” desələr də, müəyyən səbəblərə görə bu tövsiyəyə tam əməl edə bilmirik - evdən çıxmalı oluruq. Bir çoxları fikirləşir ki, isti aylarda daha yüngül geyinmək nisbətən də olsa bədəndə sərinlik yaradır. Ancaq isti havalarda geyindiyimiz geyimlərin rəngi belə xüsusi önəm kəsb edir. Belə ki, insanlar yayda əsasən ağ rəngli və ya digər açıq rəngli paltar geyinməyə üstünlük verir. Bunun səbəbi isə odur ki, ağ rəng günəş şüalarını əks etdirir və içinə çəkmir. Beləliklə də ağ rəngli paltar insan bədənini daha sərin saxlayır. Qarın günəş şüaları altında uzun müddət əriməməsinin səbəbi də budur. Yay aylarında düzgün geyim qaydası ilə bağlı digər maraqlı məqam isə bədən nahiyələrinin qapadılmağa daha çox ehtiyac duyması ilə əlaqədardır. Bir çoxları belə olduqda sərinləyəcəklərini düşünsələr də, bu, yanlış fikir imiş...**

## Yayda geyimlərimizin parçasını, rəngini necə seçək?

Modelyer Şəlalə Məmmədova “Yeni Azərbaycan”a bildirib ki, yay aylarında geyim seçərkən, parçanın materialına fikir verməklazımdır. Onun sözlərinə görə, hətta parçanın materialı rənglərdən də önəmli rol oynayır: “Yaxşı olar ki, təbii materiallara - xüsusilə kətandan, çit parçadan hazırlanan geyimlərə üstünlük verilsin. Xüsusilə, yay aylarında sintetik tərkibli geyimlərdən qətiyyən istifadə etmək olmaz. Geyim seçərkən paltarın rənginə də fikir vermək lazımdır. Yayda daha çox qarışıq və al-əlvan tonlarda olan parçalara üstünlük verilməsi məsləhətdir. Bundan əlavə, güllü, açıq rəngli parçalar hər ilin yaz-yay aylarında dəbdə olur”.



## Uzaq durun!

Modelyer, həmçinin bildirib ki, isti aylarda süni tərkibli parçalardan hazırlanan paltarları geyinmək olmaz: “Paltar seçimində çox açıq geyimlərin istifadəsi sağlamlıq baxımından da yolverilməzdir. Belə dövrlərdə daha çox havakeçirici paltarlardan istifadə edilməlidir. Bu mənada istər baş örtükləri, istərsə də digər geyimlər pambıq materialından olmalıdır ki, bədəni havalandıra bilsin. Süni tərkibli parçalardan mümkün qədər uzaq durmaq lazımdır. Yay aylarında geyim elə seçilməlidir ki, istinin orqanizmə neqativ təsirini minimuma endirə bilsin. Həmçinin, isti aylarda gigiyena qaydalarına da mütləq riayət edilməlidir. Sağlamlıq və infeksiyalarla mübarizə baxımından bu, önəmlidir. Dəri nə qədər nəfəs ala bilirsə, orqanizmə o qədər faydalıdır. Yay aylarında geyim tez-tez təzələnməlidir. Tərli və çirklənmiş paltarlar dəyişilməlidir. Çünki onlar infeksiya mənbəyi hesab olunurlar. Diqqətli olmaq lazımdır ki, neqativ halların qarşısını vaxtında almaq mümkün olsun”.

## Ağ rəng sərinlədir...

Ş.Məmmədova qeyd edib ki, bədənə oturmayan, gen-bol biçimdə olan geyimlər daha faydalıdır: “Yay aylarında açıq geyimlərdən istifadə etmək bir o qədər də məqsədəuyğun deyil. Çünki bu halda günəş şüaları bədənə birbaşa nüfuz edir və bu, insan orqanizminə mənfi təsir göstərir. Yaxşı olardı ki, nisbətən qapalı geyimlərə üstünlük verilsin. Amma bu o demək deyil ki, tünd rəngli qapalı geyimlərdən istifadə edilməlidir. Açıq ağ rəngli tonlarda qapalı geyinmək orqanizm üçün daha faydalıdır. Çünki ağ rəng günəş şüalarını geri qaytarır və nəticədə insan sərinləyir. Ultrabənövşəyi şüalardan qorunmaq üçün bu, ən əlverişli üsullardandır”.

## Ayaqqabı seçimi də vacibdir

Ş.Məmmədova qeyd edib ki, yay aylarında ayaqqabı seçimi də sağlamlığa birbaşa təsir göstərən amillərdəndir: “Havanı keçirməyən, qalın materiallardan hazırlanan ayaqqabılar ayaqlarda həddindən artıq tərləməyə, xoşagəlməz qoxuya, göbələk infeksiyalarına və uzunmüddətli gəzinti zamanı narahatlığa səbəb ola bilər. Buna görə də təbii materiallardan hazırlanan, ayağın nəfəs almasına imkan verən yüngül ayaqqabılar və sandallar daha məqsədəuyğun hesab edilir”.

*Yeganə BAYRAMOVA*

## İtmişdir

Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin Çevik Xilasetmə İdarəsində Motoxilasedici vəzifəsində xidmət edən İxtiyarov Nicat Adil oğluna məxsus xidməti vəsiqəsi itdiyinə görə etibarsız sayılır


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4490**
**Sifariş: 932**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova